

# Azərbaycan XİN Paşinyana cavab verdi

*Ermənistan baş naziri Nikol Paşinyanın bölgədəki vəziyyətə dair növbəti dəfə manipulyasiya cəhdləri qəbuledilməzdir. Ermənistanın ölkəsinə demokratiya donu geyindirərək, təcavüzkar fəaliyyətini davam etdirməsi heç kəsə sirr deyil. "Unikal" xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bunu Ermənistanın Baş naziri Nikol Paşinyanın hökumətin...*

Səh.8

UNİKAL

№12 (2146) 31 mart 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Zaur Mikayılov yüksək vəzifəyə təyin olundu

*Zaur Rauf oğlu Mikayılov Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri təyin edilib."Unikal"ın xəbərinə görə, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Zaur Mikayılov bu təyinatadək "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri olub.Yeni sədr daha əvvəl "Bravo" supermarketlər şəbəkəsinin icraçı direktoru vəzifəsində çalışıb. 2018-ci ilin noyabr ayında bu vəzifəyə təyin olunan Z.Mikayılov 2021-ci ilin yanvarında "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbəri postuna təyinat alıb. O, 2001-2009-cu illər ərzində "Bakcell" MMC-də baş kommersiya inzibatçısı kimi çalışıb. Daha sonra "PASHA Construction" tikinti şirkətində yüksək vəzifə tutub.*

Səh.2



Səh.3

# Azərbaycan strateji ərazilərdə nəzarət-buraxılış məntəqələri quracaq

## "Ölkəmizdə ictimai-siyasi sabitlik qorunur"



*Milli Məclisin deputatı Nəsib Məhəməliyev "Unikal"a müsahibə verib. O, deputat həmkarı Fazil Mustafaya qarşı törədilən silahlı hücumdan, deputatların xidməti silah almaq üçün müraciət edib-etməyəcəyindən, Azərbaycanın İsraildə səfirlik açmasının əhəmiyyətindən və başqa məsələlərdən danışıb.*

Səh.4

## Allahşükür Paşazadəyə daha bir zərbə



*Bu günlərdə məlumat yayıldı ki, ölkənin məscid və digər ibadətgahlarında qoyulan nəzir qutuları Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəzarətindən alınıb. "Gununsesi.info"nun QMİ-dəki mənbələrə istinadən verdiyi xəbərdə bildirilib ki, nəzir qutularına nəzarəti Dini Qurumlarla...*

Səh.8

## "Dindarlar arasında radikal fikirlərin yayılmasına çalışması açıq hiss olunur" - Deputat



*"Hazırda bəzi dövlətlərin, o cümlədən İran rejiminin Azərbaycanda dindən siyasi məqsədlər və insanlar arasında qarşıdurma yaratmaq məqsədilə istifadəyə, dindarlar arasında radikal fikirlərin yayılmasına çalışması açıq hiss olunur". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar...*

Səh.11

# "Siz Nailə İslamzadə, Leyla Quliyeva deyilsiniz" - Naziladən Rövşanəya



***Şair Nazilə Səfərli aparıcı Rövşanə Ağasəfqızını tənqid edib.***

Buna səbəb aparıcının verilişində Əməkdar artist Nigar Şabanovaya dediyi "Sən Hülya Avşar deyilsən" sözləri olub.

Nazilə paylaşdığı videoda R.Ağasəfqızının xanəndəni təhqir etdiyini bildirib: "Rövşanə xanım, xətrinizə dəyməsin, sizin verilişinizə gəlməzdən əvvəl insan bir az düşünməlidir ki, gedim, yoxsa getməyim. Şəxsi həyatını paylaşmaq istəməyn bir insana deyirsiniz ki, siz Sibel Can, Hülya Avşar deyilsiniz. Xoşunuza gələr sizə deyilsin ki, siz Larri Kinq, Opra Uinfri, Aydan Öndər, Elif Güvendik, Nailə İslamzadə, Lamiyə Ələkbərova, Leyla Quliyeva deyilsiniz. Bu nə müqayisədir? O qız niyə kimsə olmalıdır? Niyə belə yanaşırsınız? Belə düzgündür müqayisə etmək? Şəxsi fikridir, şəxsi həyatını paylaşmır. İttiham edirsə, özü cavab verəcək. İnsanları efirə çağırıb, aşağılamaqla nə etmək istəyirsiniz?".

# "Başıma nə oyun açırsınız?" - Həyat yoldaşı efirə zəng etdi



***"1987-ci ildə avqustun 1-də ailə qurdum. Həyat yoldaşım deyirdi ki, filan paltarı geyinmə, ora getmə, bunu etmə. Ona görə də mən efirə az çıxırdım".***

Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Bəsti Bəkirova "Günün sədası" verilişində deyib. Müğənni həyat yoldaşından danışaraq, onun qısqanc olduğunu bildirib. B.Bəkirovanın bir vaxtlar polis kimi fəaliyyət göstərən həyat yoldaşı daha sonra efirə zəng edib. "Həyat yoldaşı xanımını anlamalıdır, yanında olmalıdır. Bu yaşımda başıma nə oyun açırsınız" deyərək, o, sualları cavablandırıb.

Proqramda qonaq olan Əməkdar artist Cavanşir Məmmədov isə "Faiq mənim dostumdur. İllərlə Bəstini toylara getməyə qoymayıb" sözlərini əlavə edib.



# "Rəhimlə aramıza girənlərin ölümünü gözləyirəm"

***Müğənni Kərim Abbasov "Həmin Zaur" verilişində qonaq olub.***

Sənətçi proqramda bir zamanlar qalmaqal yaşadığı mərhum həmkarı, bəstəkar Rəhim Rəhimli haqda danışıb.

"Allah Rəhimə rəhmət eləsin. Küsülüydük, Rəhimlə aramıza girən var idi. Dalaşmamışdıq. İndi həmin şəxslər sağdır, onların ölümünü gözləyirəm. Arada gəzənlər, heç nədən adamı pis çıxaranlar var. Adım, sözüm olmadan Rəhimə nəsə çatdırmışdılar və o insan ömrünün sonuna qədər mənimlə küsülü qaldı. Təbii ki, peşmanlıq hissi keçirirəm. Kim istəyər ki, həyatdan küsülü getsin" deyə, Kərim bildirib.

Qeyd edək ki, Kərim Abbasov bir neçə il əvvəl müsahibələrinin birində onunla müğənni Niyam Salaminin arasını R.Rəhimlinin vurduğunu iddia edərək onu şeytan adlandırmışdı.

# İşsizlikdən şikayətlənən "Moşu"ya vəzifə verildi



***Xalq artisti Valeh Kərimov Mingəçevir Dövlət Dram Teatrında quruluşçu rejissor kimi işə başlayıb.***

"Unikal" Lent.az-a istinadən bildirir ki, aktyor Mingəçevir teatrında həm aktyor, həm də quruluşçu rejissor kimi çalışacaq.

"Artıq ilk tamaşanı hazırlayıb təhvil vermişəm, premyeramız da baş tutub. Yenidən səhnədə olmaq mənə yeni enerji verib. Yolunuz düşsə, buyurun gəlin, Mingəçevirə, maraqlı tamaşalardan zövq alın", - o bildirib.

Qeyd edək ki, bir müddət öncə aktyorla telefon söhbətimiz zamanı o işsiz olduğunu və yaradıcılığında heç bir yenilik baş verməməsinə görə əsəbləşdiyini bildirmişdi.

Valeh Kərimov teatrda və kinoda çoxlu sayda maraqlı obrazlar yaratsa da, xalqın yadında "Bəxt üzüyü" filmindəki Moşu obrazı ilə daha çox qalıb, daha çox sevilib.

# Könül Xasıyeva konsert verəcək



***Xalq artisti Könül Xasıyevanın yaradıcılıq gecəsi keçiriləcək.***

Bu haqda xanəndə özü məlumat yayıb. O bildirib ki, tədbir aprelin 3-də keçiriləcək. Beynəlxalq Muğam Mərkəzində planlaşdıran gecədə xanəndə sevənləri ilə görüşəcək.

Qeyd edək ki, K.Xasıyeva bir müddət əvvəl boğazında şiş aşkarlandığını açıqlamış və müalicə üçün Almaniyaya gedəcəyini açıqlamışdı.



# Azərbaycan XİN Paşinyana cavab verdi

***Ermənistan baş naziri Nikol Paşinyanın bölgədəki vəziyyətə dair növbəti dəfə manipulyasiya cəhdləri qəbuledilməzdir. Ermənistanın ölkəsinə demokratiya donu geyindirərək, təcavüzkar fəaliyyətini davam etdirməsi heç kəsə sirr deyil.***

”Unikal” xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bunu Ermənistanın Baş naziri Nikol Paşinyanın hökumətin iclası zamanı səsləndirdiyi fikirlərlə bağlı medianın sualına cavab verərkən qeyd edib.

Baş nazirin Beynəlxalq Ədalət Məhkəməsinin Laçın yolu ilə bağlı müvəqqəti qərarını növbəti dəfə yanlış təfsir etməsi və Azərbaycanın guya Laçın yolunu bağladığı barədə iddialar səsləndirməsinin heç bir əsası yoxdur.

Bununla yanaşı, Azərbaycanın suveren əraziləri olan Laçın yolunun şimalında Ermənistanın torpaq yollarından qeyri-qanuni fəaliyyətlər üçün istifadəsinin, Azərbaycanın ərazilərinə silah-sursat daşımaqla vəziyyətin daha da gərginləşmək və potensial təxribatların törədilməsi niyyətinin qarşısını almaq məqsədilə Azərbaycan ordusunun bölmələri tərəfindən heç bir güc tətbiq olunmadan müvafiq nəzarət tədbirləri görülməsinin Ermənistan Baş naziri tərəfindən işğal kimi qiymətləndirilməsi qəbuledilməzdir.

Ermənistandan Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasını intensivləşdirən Ermənistanın qanunsuz fəaliyyətlərinin qarşısının alınması Azərbaycanın suveren hüququdur və Azərbaycan bu istiqamətdə bütün zəruri tədbirlər həyata keçirilməsində qərarlıdır.

Bununla yanaşı, yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar Laçın rayonunun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəkliyin, əsas və yardımçı yolların, eləcə də sərhədboyu geniş sahələrin nəzarətə götürülməsi barədə məlumatların Ermənistan tərəfindən gərginliklə qarşılanması və Baş nazirin bu məlumatı çıxışı zamanı şərh etməsi anlaşılan deyil.

Ermənistan Baş nazirinin həmçinin Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğunu danması onun birbaşa tabeliyində olan Ermənistanın digər rəsmi şəxslərinin və Müdafiə Nazirliyinin silahlı qüvvələrin hələ də çıxarılmadığı barədə bəyanatları ilə uzlaşmadığı yaxşı məlumdur.

Ermənistan tərəfinin bütün faktlara baxmayaraq, 30 il müddətində qüvvələrinin Azərbaycanı işğal etmədiyini də iddia etdiyini yaxşı xatırlayırıq. Ermənistastanın bütün bu iddialarının heç bir əsasının olmadığı dəfələrlə sübut edilib və BMT Təhlükəsizlik Şurasının qətnamələri də Ermənistan qüvvələrinin qeyd şərtsiz və dərhal çıxarılmasını tələb edib. Ermənistan tərəfi Üçtərəfli bəyanata uyğun olaraq qüvvələrini tam olaraq Azərbaycan ərazisindən çıxarmalıdır.

Ermənistan tərəfi Azərbaycana qarşı ərazi iddialarından əl çəkməlidir. Beynəlxalq təşkilatları Azərbaycana dəvət etmək və ölkəmizin daxili işlərinə qarışmaq əvəzinə öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir.

Ermənistanın son həftələrdə Azərbaycana qarşı təcavüzkar ritorikanı artırması, 5 və 20 mart tarixlərində silahlı qüvvələrimizə qarşı təxribatlara yol verməsi və bölgəyə əlavə qüvvələr yığması bir faktdır. Həm 30 illik işğal dövründə, həm də 2020-ci ildən sonra Ermənistanın hər təxribata hazırlaşmazdan əvvəl bütün məsuliyyəti Azərbaycan üzərinə atması və təxribatlara yol verməsi hər kəsə məlumdur.

Baş nazirin Azərbaycanın etnik təmizləmə və “soyqırım” aktı törətmək niyyətində olması barədə növbəti dəfə səsləndirdiyi absurd fikirlərə gəldikdə qeyd edək ki, Azərbaycan tarix boyu Ermənistanın azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınların qarşılığında heç zaman mülki əhalini hədəf almayıb. Ermənistanın terror və kütləvi qırğın siyasəti və əməlləri bütün sənədlərlə tarixin yaddaşına həkk olunub və bunu danmaq Ermənistanın bu əməllərdən imtina etmədiyini sübut edir.

Ermənistan tərəfinin bu təhrikçi və təxribatçı bəyanatları bölgədə sülhün bərqərar olunması istiqamətində beynəlxalq səylərin canlanması şəraitində Ermənistanın sülh prosesini məqsədyönlü şəkildə pozmaq niyyətindən xəbər verir və bu kimi addımların qarşısı qətiyyətlə alınmalıdır.

# Allahşükür Paşazadəyə daha bir zərbə

## İbadətgahlarda toplanan pulların hara getdiyi yenidən müzakirə mövzusuna çevrilib - Yaxın vaxtlarda hər şey aydınlaşacaq...

***Bu günlərdə məlumat yayıldı ki, ölkənin məscid və digər ibadətgahlarında qoyulan nəzir qutuları Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəzarətindən alınıb. ”Gununsesi.info”nun QMİ-dəki mənbələrə istinadən verdiyi xəbərdə bildirilib ki, nəzir qutularına nəzarəti Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi (DQİDK) həyata keçirir.***

”Məscidlərdə və digər ibadət ocaqlarında maaşla çalışlan işçilərin pulları ödənməyib. Həmin bu maaşlar nəzir qutularındakı pullar hesabına ödənilirdi” deyə mənbələr vurğulayıblar.

Xatırladaq ki, bir müddət öncə məscidlərə axund təyinatı da QMİ-dən alınaraq, adıçəkilən komitəyə verilmişdi. Bu səbəbdən də nəzir qutularının da sözügedən idarənin nəzarətindən çıxarılması xəbəri şübhə doğurmadı. Elə DQİDK-dən verilən açıqlama da məlumatı dolayı olaraq təsdiqləyirdi.

Belə ki, komitə ibadətgahlarda və məscidlərdəki nəzir qutularına nəzarətin Qafqaz Müsəlmanları İdarəsindən alınaraq Dövlət Komitəsinə verilməsi məsələsinə aydınlıq gətirərkən bildirdi ki, “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununa dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 11 mart 2022-ci il tarixli Fərmanına əsasən dini qurumların ianə qəbul etməsi məsələsi ”Dini etiqad azadlığı haqqında” qanunun 18-ci maddəsinin 3-cü hissəsinə edilmiş dəyişiklikdə öz əksini tapıb.

“Belə ki, qanunun 18-ci maddəsinə görə, dini qurumlar könüllü ianələr üçün müraciət edə, habelə bu ianələri, o cümlədən ianə edilmiş pul vəsaitlərini nağd və ya bank, poçt, plastik kart, elektron ödəmə sistemləri, yaxud internet vasitəsilə qəbul edə bilərlər. Qanundan irəli gələn məsələləri tənzimləmək üçün qaydalar müvafiq qurumların nümayəndələrinin iştirakı ilə hazırlanır və proses başa çatdırıldıqdan, qaydalar təsdiq olunduqdan sonra ictimaiyyətə ətraflı məlumat veriləcək. Hazırda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən bu məsələlərə nəzarət həyata keçirilmir”, - məlumatda deyilir.

Açıqlamadan aydın olan odur ki, məsələ hələlik rəsmiləşməyib, bu istiqamətdə iş gedir və yaxın vaxtlarda proses yekunlaşacaq. Cəmiyyətə açıqlama da həmin vaxt veriləcək.

Qeyd edək ki, nəzir qutularında toplanan pulların aqibəti bir müddətdir ki, mediada və ictimaiyyətdə müzakirə mövzusudur. Hətta QMİ rəisi Şeyxülislam Hacı Allahşükür Paşazadə və yaxınlarının sahib olduğu nəhəng varidatda, böyük biznes şəbəkəsinin qurulmasında həmin pulların rolu barədə dəfələrlə deyilib, yazılıb. Hərçənd, A.Paşazadə belə iddialara bir neçə il öncə ”Mənim çoxlu mülküm olması ilə bağlı deyilənlər iftiradır, təxribat məqsədi ilə yayılır” deyərək reaksiya vermiş və ardınca əlavə etmişdi: ”Deyirlər, şeyxin xaricdə, ya da burda çoxlu mülkü var. Bunların hamısı təxribatdır. Əvvəla, sevinin ki, sizin şeyxiniz bu cür güclü olsun. İkincisi isə xaricdən onsuz da dini liderə qarşı iftira var, bunu daxildə də davam etdirməklə nə əldə edirsiniz? Xaricdən mənə - şeyxülislama qarşı belə çirkin təxribatlar törədilir... Deyirlər, nəzir qutularına nəzarət edirəm və sair. Yalandır. O qutularla mənim nə işim var?”



Lakin cəmiyyət, ekspertlər, media fərqli fikir və qənaətdədir: nəzir qutularındakı pulların taleyi ilə bağlı mübahisələr səngimir, əksəriyyət həmin pulların şəxsi ciblərə ”axdığını”, müəyyən adamların maraqlarına xidmət etdiyini deyir. Üstəlik, heç bir məscid, pir və ya ziyarətgahın nəzir qutularına nə qədər pul atıldığı və bu pulların haraya xərcləndiyi ilə bağlı hesabat verməməsi mübahisələri daha da alovlandırır.

Qeyd edək ki, dünyanın digər ölkələrində də nəzir vermək adəti var. Ancaq bu ölkələrdə proses şəffaf aparılır. Məsələn, ABŞ-da yəhudilərə məxsus fondlardan toplanan pullarla bağlı hesabatlar verilir. Türkiyədə isə məscidə yardım edən şəxs qeydiyyatdan keçmiş mədaxil qəbzi alır. Həmçinin mətbuat vasitəsilə ictimaiyyətə yığılan sədəqələrin haralara xərcləndiyi açıqlanır. Məsələn, aydın olur ki, pullar ehtiyacı olanlara, məscidlərin təmirinə sərf olunub.

Bizdə isə vəziyyət fərqlidir - nəzir pullarının taleyi illərdən bəridir cəmiyyətə qaranlıq qalır.

Lakin hesab edilir ki, nəzir qutularına nəzarətin Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinə verilməsi durumu kökündən dəyişəcək. Əvvəla, həmin qutularda toplanan pullarla bağlı şəffaflıq təmin ediləcək və bununla da cəmiyyətdəki mübahisələr, müzakirələr aradan qalxacaq. İkincisi, indiyədək nəzir qutularına nə qədər pulların toplandığı və onların hara, necə xərcləndiyinə aydınlıq gələcək.

Hər iki məqamın QMİ rəhbərliyi tərəfindən arzuedilən olmadığını söyləməyə isə yəqin ki, ehtiyac yoxdur...

***Sənan Mirzə***



# Azərbaycan strateji ərazilərdə nəzarət-buraxılış məntəqələri quracaq



**Tofiq Zülfüqarov: "Giriş-çıxışa biz, təhlükəsizliyə sülhməramlılar nəzarət etməlidir"**



**Ədalət Verdiyev: "Bu, Ermənistandan Qarabağa şəxsi heyətin, silah-sursatın daşınmasının qarşısını alacaq"**

***Yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar Laçın rayonunun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəklik, əsas və yardımçı yollar, eləcə də sərhədboyu geniş sahələr nəzarətə götürülüb.***

Əslində bir neçə gün öncə Prezident İlham Əliyev Azərbaycanın prinsipial mövqeyini bir daha ifadə etdi. Bununla paralel olaraq Ordumuzun müvafiq əməliyyatları məsələnin qısa müddətdə öz həllini tapacağını deməyə əsas verir. Prezident İlham Əliyev son bəyanatlarında xüsusilə qeyd etdiyi kimi, heç kim Azərbaycanla ultimatum dili ilə danışa bilməz, heç kim Azərbaycanı yolundan döndərə bilməz: "Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz. Biz bunu İkinci Qarabağ müharibəsində Ermənistana sübut etmişik, müharibədən keçən iki il yarım ərzində Ermənistanın himayədarlarına sübut etmişik".

Sarıbaba yüksəkliyi əmliyyatını bir neçə gün öncə çox uğurla icra edib həmin istiqamətdə strateji yüksəklikləri nəzarətə götürən Azərbaycan ordusunun bu həmləsindən narahat olan Ermənistan və digər xarici qüvvələrə Azərbaycan əsgəri bu gün növbəti şoku yaşatdı. Belə ki, Ordumuzun bölmələri Laçın rayonunun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəklik, əsas və yardımçı yollar, eləcə də sərhədboyu geniş sahələr nəzarətə götürməklə Qarabağ separatçılarının Ermənistanla gediş-gəlişini tamamilə deaktivləşdirib. Bu o deməkdir ki, Azərbaycan Gorus-Xankəndi yolunun Laçın rayonuna daxil olan hissəsində yolu bağlamaqla Laçın dəhlizinin girişində nəzarət-buraxılış məntəqəsi qurmağa başlayır. Bu, eyni zamanda Gorus-Xankəndi yolunun Ermənistan sərhədindən başlayan hissəsinin - tamamilə yeni marşruta köçürülən Laçın dəhlizinin nəzarətə götürülməsi deməkdir. Və bu həm də rəsmi Bakının dəfələrlə gündəmə gətirdiyi "Laçın yolunun Ermənistan sərhədindən başlayan hissəsində nəzarət-keçid məntəqəsi qurulmalıdır" istəyinin gerçəkləşməsinə doğru praktiki addım hesab edilə bilər.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən hərbi ekspert Ədalət Verdiyev nəzarətə götürülən yüksəkliklərin çox əhəmiyyətli olduğunu bildirib: "Azərbaycan Ordusunun Cağazur və Zabux kəndləri arasında yerləşən hakim yüksəkliklərini, əsas və yardımçı yolları nəzarətə götürməsi Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsini inşa etməsi ilə nəticələnəcək. Bu, Ermənistandan Azərbaycan ərzilərinə şəxsi heyətin, silah-sursatın və minaların daşınmasının qarşısını alacaq. Digər tərəfdən isə, Azərbaycan Ermənistanla sərhəd olan ərazilərin çox vacib bir hissəsinə nəzarəti öz əlinə götürmüş olacaq", - deyə o qeyd edib.

Ekspert son günlər ordumuzun həyata keçirdiyi əməliyyatların mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Onun sözlərinə görə, əməliyyatların yeganə məqsədi ərazilərimizdən erməni işğalçılarının təmizlənməsi və orada Azərbaycan dövlət qurumlarının fəaliyyətinin bərpa edilməsindən ibarətdir.

O, bildirib ki, Qarabağın qanunsuz erməni silahlılarından təmizlənməsi üçün əməliyyat keçirilməsini istisna etmək olmaz: "Biz "Qisas" əməliyyatının başlanmasını elan etdik. Lakin bu əməliyyat bitməyib. "Qisas" əməliyyatının davamı, yaxud ikinci mərhələsi həyata keçirilə bilər. Bu əməliyyatlar Azərbaycanın hüququdur. Əməliyyatların yeganə məqsədi isə ərazilərimizdən erməni işğalçılarının təmizlənməsi və orada Azərbaycan dövlət qurumlarının fəaliyyətinin bərpa edilməsindən ibarətdir. Rus kontingentinin müvəqqəti fəaliyyət göstərdiyi ərazilərdən qanunsuz silahlı birləşmələr təmizlənmədiyi vaxta qədər bölgədə sülh bərqərar ola bilməz".

Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Unikal"a açıqlamasında bildirib ki, bir müddət sonra Azərbaycan Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaradacaq: "Orada gömrük orqanları və həmçinin digər qurumlar təmsil olunmalıdır. Eyni zamanda, istisna olunmur ki, təhlükəsizlik məsələlərinə bir müddət sülhməramlılar nəzarət edəcək. Yəni, biz burada bölgü aparmalıyıq. Giriş-çıxış, sərhəd qanunlarına uyğun fəaliyyəti bizim dövlət qurumları həyata keçirməlidir. Beynəlxalq təcrübə onu göstərir ki, sülhməramlı qüvvələr heç vaxt sərhəd funksiyalarını həyata keçirmir. Bu baxımdan biz də istisna olmamalıyıq. Sülhməramlılar yalnız təhlükəsizliyi təmin edirlər.

Beynəlxalq qurumlar iki məsələni bir-birinə qarışdırıblar: Nəzarət və blokada. Azərbaycan tərəfi hər zaman bəyan edir ki, bizim məqsədimiz nəzarətdir, blokada yoxdur və ola da bilməz", - deyə o qeyd edib.

Politoloq Məhəmməd Əsədullazadə isə deyib ki, Azərbaycan Ermənistanın Qarabağda erməni icması ilə bütün hərbi lojistik əlaqələrinə son qoyur. Onun fikrincə, bu təhlükəsizliyimizin təmini və Ermənistanla sülh müqaviləsinin bağlanması yolunda əngəlləri aradan qaldırır: "Növbəti dəfə Ermənistanla sərhəddə Laçın yolunda NBM qurulacaq. Bununla da Laçın dəhlizinin statusu ləğv edilir və adi magistral yol funksiyasına malik olacaq. Necə ki, Ermənistan Naxçıvanla Azərbaycan arasında yoldan istifadə qaydalarını tətbiq edir. Azərbaycanın nəzarəti bərpa etməsi Rusiyanın maraqlarına xidmət etmir. Ona görə də Rusiya çalışır ki, Ermənistanla sərhəddə KTMT qüvvələrini yerləşdirsin. Qarabağ iqtisadi rayonunda yaşayan erməni icması isə silahdan imtina etməklə Azərbaycanın idarəçiliyini qəbul etməlidir".

***Murad İbrahimli***



## Hazırda 1500 məscid fəaliyyət göstərir - Komitə sədri

***Dünya ölkələri arasında rəsmi dini mənsubiyyətini ateist elan edən ölkə yoxdur.***

"UNİKAL" xəbər verir ki, bu barədə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsində keçirilən "Azərbaycanda dövlət-din münasibətləri: real durum və perspektivlər" adlı toplantıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib.

O qeyd edib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra din məsələni çox qabartmayıb.

"Çünki Azərbaycan çoxmillətli və dünyəvi bir dövlətdir. Azərbaycan müstəqil olanda 17 məscid var idi. Eyni zamanda dini idarə edən kadrlar yox idi. Dini kadrların olmaması əslində din haqqında yanlış məlumatların yaranmasına səbəb olurdu. Əhalinin din bilgilərinin az olmasından istifadə edənlər də vardı. Hazırda 2500 qədər məscid var ki, onlardan 1500-ə qədəri gündəlik fəaliyyət göstərir", - Mübariz Qurbanlı vurğulayıb.

## Heydər Əliyevin 100 illiyi ilə bağlı yubiley medalı təsis edilir

***Heydər Əliyevin 100 illiyi (1923-2023) Azərbaycan Respublikasının yubiley medalı təsis ediləcək.***

"Unikal"ın xəbərinə görə, bununla bağlı " Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanuna dəyişiklik təklif edilir.

Layihə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında birinci oxunuşda müzakirəyə çıxarılıb.

## Azərbaycan və Macarıstan arasında müqavilə imzalandı

***Azərbaycan İnvestisiya Şirkəti ASC və Macarıstanın Hell Energy şirkəti arasında investisiya müqaviləsi imzalanıb.***

"Unikal"ın məlumatına görə, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov tvitterdə yazıb.

"Azərbaycan və Macarıstan arasında iqtisadi-ticarət əlaqələrinin gücləndirilməsi davam edir.

Azərbaycan İnvestisiya Şirkəti ASC və Macarıstanın Hell Energy şirkəti arasında imzalanmış investisiya müqaviləsi ölkələrimizin biznes dairələrinin səmərəli əməkdaşlığı istiqamətində əhəmiyyətli addımdır", - nazir yazıb.

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradıldı

## "Azərsu" ilə Meliorasiya və Su Təsərrüfatı ASC birləşdirildi



***Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (bundan sonra - Agentlik) yaradılıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Prezident İlham Əliyevin imzaladığı "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" Fərmanda qeyd olunub ki, Agentlik Azərbaycan Respublikasında suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyətin təşkilini təmin edən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarını, eləcə də bu sahədə xidmətlər göstərilməsini təşkil edən, balansında olan su təsərrüfatı obyektlərinin texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirən, Azərbaycan Respublikasında yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini aparan, bu sahələrdə vahid dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

# Azərbaycanda daha 4 nəfər koronavirusdan öldü



***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 69 yeni yoluxma faktı qeydə alınıb, 17 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 4 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 829 660 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 819 134 nəfər müalicə olunaraq sağalıb, 10 182 nəfər vəfat edib, aktiv xəstə sayı 344 nəfərdir.

Ölkədə son sutka ərzində 957, hazırkı dövrədək isə 7 557 801 test aparılıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1800

# Türkiyədə əyani tədrisə keçid edilir

***Türkiyədə aprel ayının 3-dən etibarən universitetlərdə əyani tədrisə keçid edilir.***

"Unikal" xəbər verir ki, bunu Türkiyə Ali Təhsil Şurasının (YÖK) şədri Erol Özvar açıqlayıb. YÖK sədrinin sözlərinə görə, tələbələrə həmçinin istəkləri üçün distant təhsil də davam etdiriləcək. Özvar qeyd edib ki, yaz semestrində imtahanlar şəffaflıq prinsipi əsasında distant təhsil metodları ilə onlayn keçiriləcək.

Qeyd edək ki, Türkiyədə baş verən zəlzələlər səbəbi ilə 17 fevral 2023-cü il tarixindən etibarən distant təhsil tətbiq olunurdu.

***Ağarza Elçinoğlu***

# "Azərsu" ilə Meliorasiya və Su Təsərrüfatı ASC birləşdirildi

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti əmlakları ilə birlikdə Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında yaradılan Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyinə verilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Azərbaycan Prezidenti İlham Əliyev su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında fərman imzalayıb. Sənədə əsasən Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılıb:

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetməni təkmilləşdirmək, su ehtiyatlarından səmərəli istifadə etmək, torpaqların meliorasiyası və irriqasiyası işlərinin təşkilini yaxşılaşdırmaq məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (bundan sonra - Agentlik) yaradılsın.




2. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti əmlakları ilə birlikdə Agentliyin tabeliyinə verilsin.

3. Müəyyən edilsin ki, Agentlik Azərbaycan Respublikasında suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyətin təşkilini təmin edən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarını, eləcə də bu sahədə xidmətlər göstərilməsini təşkil edən, balansında olan su təsərrüfatı obyektlərinin texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirən, Azərbaycan Respublikasında yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini aparan, bu sahələrdə vahid dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. beş ay müddətində:

4.1.1. Agentliyin əsasnaməsinin və strukturunun layihələrini, habelə işçilərinin say həddi barədə təkliflərini beynəlxalq məsləhətçi şirkəti cəlb etməklə hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.1.2. Agentliyin yaradılması ilə əlaqədar normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. bir ay müddətində:

4.2.1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin balansında olan dövlət əmlakının Agentliyin balansına verilməsini təmin etsin;

4.2.2. bu Fərmanın 4.1.1-ci yarımbəndində nəzərdə tutulan işlərin maliyyələşdirilməsini təmin edilməsi, habelə Agentliyin maddi-texniki təminatı məsələlərinin həlli üçün tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Agentliyin əsasnaməsi və strukturu təsdiq edilənədək, bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan qurumlar öz fəaliyyətlərini davam etdirsinlər.

# Zaur Mikayılov yüksək vəzifəyə təyin olundu

***Zaur Rauf oğlu Mikayılov Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri təyin edilib.***

"Unikal"ın xəbərinə görə, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Zaur Mikayılov bu təyinatadək "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri olub.

Yeni sədr daha əvvəl "Bravo" supermarketlər şəbəkəsinin icraçı direktoru vəzifəsində çalışıb. 2018-ci ilin noyabr ayında bu vəzifəyə təyin olunan Z.Mikayılov 2021-ci ilin yanvarında "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbəri postuna təyinat alıb.

O, 2001-2009-cu illər ərzində "Bakcell" MMC-də baş kommersiya inzibatçısı kimi çalışıb. Daha sonra "PASHA Construction" tikinti şirkətində yüksək vəzifə tutub. Belə ki o, "Port Baku Towers"in baş direktoru olub.

"Bravo" supermarketlər şəbəkəsinə rəhbərlik etməmişdən öncə Zaur Mikayılov "Agro Dairy" MMC-də baş direktor vəzifəsində işləyib. Adıçəkilən şirkət "PASHA Holding"in strukturuna daxildir.



Qeyd edək ki, Zaur Mikayılov Bosfor Universitetinin "Biznesin idarə olunması" fakültəsini bitirib.

# Müdafiə Nazirliyi iranlı generala cavab verdi

***İran İslam Respublikası Ordusunun Quru Qoşunlarının Komandanı Kiomərs Heydəri tərəfindən Azərbaycana münasibətdə çirkin iftira və böhtan xarakterli fikirlər səsləndirilmişdir.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən bildirilib.

Qeyd edilib ki, K.Heydəri öz cəfəng fikirlərində Azərbaycanda güya "sionist" qüvvələrin olması və 44 günlük Vətən müharibəsində Azərbaycanın Suriyadan gətirilən İŞİD terroristlərindən istifadə etdiyini və onların hələ də ölkə ərazisində olduğunu iddia edir. O eyni zamanda İran tərəfindən Ermənistan ilə sərhəddə dəyişikliklərə icazə verilməyəcəyini deyir.

İlk öncə bildiririk ki, Azərbaycan Respublikası ərazisində hər hansı xarici qüvvələrin olması haqqında İran tərəfinin ittihamı əsassızdır və



tamamilə qəbuledilməzdir. Ümumiyyətlə, Azərbaycan Respublikasının ərazisində kənar elementlər mövcud deyildir.

K.Heydəriyə xatırlatmaq istərdik ki, Ermənistan 30 il ərzində Azərbaycan ərazilərini işğal altında saxlamışdır. Bu hərbi təcavüz nəticəsində Azərbaycan-İran dövlət sərhədinin 137 kilometrlik hissəsi də işğal edilmişdi. Lakin, İran tərəfi bir dəfə də olsun Ermənistana münasibətdə ittihamedici açıqlama verməmişdir. Əksinə bu dövr ərzində İran-Ermənistan qardaşlığı daha da güclənmişdir. Bu gün də heç kimə sirr deyil ki, Ermənistanın dünyada iki əsas müttəfiqi varsa onlardan biri Fransa, ikinci isə İrandır.

Azərbaycan Respublikası bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir və dövlətlərin daxili işlərinə qarışmır.

44 günlük Vətən müharibəsində Azərbaycanın güya İŞİD terrorçularından istifadə etməsinə dair ittihama cavab olaraq bildiririk ki, şanlı Azərbaycan ordusu təkbaşına torpaqlarımızı işğaldan azad edərək zəfər salnaməsi yazmışdır. Bu iddia cəfəng ittiham və iftiradan başqa bir şey deyildir. Bu ittihamın məhz terrorizmi dəstəkləyən və adı dünyanın müxtəlif ölkələrində terror əməllərinin törədilməsində keçən dövlətin yüksək çinli hərbçisi tərəfindən irəli sürülməsi istehza və gülünc doğurur.

# İlham Əliyev Əmlak Məsələləri Dövlət Xidmətinin binasının açılışında

***İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin paytaxt Bakıda yeni inzibati binası istifadəyə verilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni binanın açılışında iştirak edib.

Qeyd edək ki, son illərdə paytaxtda modern üslubda tikilən çoxmərtəbəli binalar sırasına daha biri əlavə olunub. Ulu öndər Heydər Əliyevin adını daşıyan prospektdə ucaldılan yeni bina da müasir memarlığı ilə diqqəti cəlb edir.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bina barədə dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, bina modern və postmodern üslubda layihələndirilib və mürəkkəb konstruktiv quruluşa malikdir. Hündürlüyü 125 metr olan bina 33 mərtəbədən ibarətdir. Yükdaşıyan konstruksiyaları 9 ballıq zəlzələyə davamlı olan binanın hər mərtəbəsi digər mərtəbəyə nisbətdə 2,65 dərəcə dönür və nəticədə fasad müstəvisi 90 dərəcəlik burulma effekti yaradır.

Binanın daha bir diqqətçəkən cəhəti isə yuxarıdan baxanda kürsü mərtəbəsinin Azərbaycanın xəritəsi formasında inşa edilməsi və şərq tərəfdən "Xəzər dənizi" dekorativ hovuzu ilə əhatə olunmasıdır. İşçi mərtəbələri 254 otaqdan ibarət olan binada 537 əməkdaşın fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şəraitə malik və müasir multimedia vasitələri ilə təchiz olunmuş konfrans və iclas zalları, həmçinin müxtəlif təyinatlı iclas otaqları, yeməkxanalar var. Binadaxili mikroiqlimin təmin olunması, səmərəli enerji sərfiyyatının tənzimlənməsi, işıqlandırma, yanğınsöndürmə və təhlükəsizlik sistemlərinin idarə edilməsi, fövqəladə hallar zamanı mühəndis-texniki sistemlərin tənzimlənməsi üçün İdarəetmə Mərkəzi qurulub. Göründüyü kimi, yeni binada tikintidə müasir çağırışların paytaxtımızın infrastrukturuna inteqrasiyası ilə yanaşı, işçi heyətin daha səmərəli çalışması üçün hər cür şərait yaradılıb.



Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar çərçivəsində əmlak məsələləri sahəsində də bir sıra irəliləyişlərə nail olunub. Belə ki, dövlət əmlakının idarə edilməsi, özəlləşdirilməsi, daşınmaz əmlakın qeydiyyatı və kadastrı, torpaq idarəçiliyi və digər sahələrdə mühüm işlər görülüb. Vətəndaşlara və sahibkarlara göstərilən dövlət xidmətlərində şəffaflığın artırılmasına, elektron xidmətlərin genişləndirilməsinə, vətəndaş məmnunluğunun yüksəldilməsinə xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, 2022-ci ildə vətəndaşlardan, sahibkarlardan, bələdiyyələrdən, dövlət qurumlarından Xidmətə 1 milyona yaxın elektron müraciət daxil olub.

Xüsusi vurğulayaq ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əks etdirilən tədbirlər, o cümlədən həmin ərazilərdə yerquruluşu, torpaqların elektron kadastr uçotu, torpaq tədqiqatları, torpaqların idarə edilməsi və işğal nəticəsində dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı işlər davam etdirilir. Məsələn, işğaldan azad edilmiş ərazilərdə ötən il 390 min hektar sahədə yerquruluşu, 283 min hektarda çöl torpaq tədqiqatı, 309 min hektarda geobotaniki tədqiqat işləri görülüb. Həmçinin azad edilən ərazilərdə indiyədək 14,1 min daşınmaz əmlakın ilkin inventarlaşdırılması işləri tamamlanıb. Bu sahədə uğurlardan biri də işğaldan azad edilmiş ərazilərdəki daşınmaz əmlak və infrastruktur obyektləri barədə toplanmış məlumatların etibarlı surətdə qorunmasının və səmərəli istifadəsinin təmin edilməsi məqsədilə Qarabağ Rəqəmsal Geo-İnformasiya Sisteminin yaradılmasıdır. Bu günədək rəqəmsallaşdırılması mümkün olan 164 minə yaxın tikili və qurğudan təqribən 145 mini təsbit olunub və həmin sistemə daxil edilib.

# "İcazə" blanklarının dövlət sərhədində kvotadan kənar verilməsi ləğv edilib

***Azərbaycan Respublikası Prezidentinin 29 mart 2023-cü il tarixli Fərmanı ilə xarici dövlətlərdə qeydiyyatda olan nəqliyyat vasitələrinə "İcazə" blanklarının dövlət sərhədinin buraxılış məntəqələrində verilməsi ləğv edilib.***

"Unikal" xəbər verir ki, beynəlxalq sərnişin və yük daşımaları Azərbaycan Respublikası ilə digər ölkələr arasında kvota ilə müəyyin edilən "İcazə" blankları əsasında həyata keçirilir.

Kvota sistemi ilə yanaşı, sərnişin və yük daşımalarını həyata keçirən xarici dövlətlərin nəqliyyat vasitələrinə sərhəddə kvotadan kənar "İcazə" blanklarının verilməsi mexanizmi də tətbiq edilirdi. Qeyd olunan mexanizmin mövcudluğu isə kvota üzrə mübadilə edilmiş "İcazə" blankı bitən tərəfin avtodaşıyıcılarının sərhəddə müvafiq "İcazə" blankını alaraq yerli daşımalar bazarına daxil olmaqla ölkə ərazisinə və ərazisindən yüklərin və sərnişinlərin daşınmasına imkan yaradırdı. Nəticədə daşımalarla bağlı kvota üzrə mübadilə edilən "İcazə" blanklarının Azərbaycan avtodaşıyıcıları tərəfindən tam şəkildə istifadə edilməməsi, onların müvafiq sifarişlərdən kənarda qalmaları baş verirdi. Bu da öz növbəsində milli avtodaşıyıcıların nəqliyyat parkının yenilənməsinə və sayının artmasına mənfi təsir göstərməklə onların beynəlxalq səviyyədə rəqabətliliyini və bazar paylarını azaltdı, yeni iş yerlərinin yaranması imkanlarını məhdudlaşdırdı.



Xarici dövlətlərdə qeydiyyatda olan nəqliyyat vasitələrinə "İcazə" blanklarının dövlət sərhədinin buraxılış məntəqələrində verilməsinin ləğvi ilə kvotadan artıq xarici nəqliyyat vasitələrinin ölkə ərazisinə daxil olmasına imkan verilməyəcək. Həmçinin beynəlxalq daşımalarda iştirak edən milli avtomobil daşıyıcılarının ölkəmizin geniş nəqliyyat-logistika imkanlarından aktiv istifadə etmələrinə münbit şərait yaranacaq. Eləcə də beynəlxalq daşımalar bazarında milli daşıyıcıların payları və beynəlxalq səviyyədə rəqabətliliyi əsaslı dərəcədə artacaq.




## "Əgər bir ruhani süni-şiə söhbəti ortaya atsa..." - QMİ sədrinin müavini

***"Mütəmadi şəkildə din xadimlərinə xüsusi olaraq tapşırılıb ki, əgər bir məsciddə işləyən ruhani süni-şiə söhbəti ortaya atsa, heç vaxt onları öz sıralarımızda görməyəcəyik".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin bu gün keçirilən iclasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev deyib.

QMİ sədrinin müavini bildirib ki, bu məsələdə dövlət də onlara dəstək olur: "Dövlət istər məscidlərin inşası, istərsə də bərpası işində daim öz dəstəyini göstərir".

O qeyd edib ki, bu gün də xaricdə dini təhsil alan vətəndaşlarımız var: "Əgər bünövrə sağlam qorunsa, nəticəsi də yaxşı olar. Biz bu gün dövlət-din münasibətlərində sağlam vəhdəti qoruya bilsək, sağlam əqidəmiz olar. Qafqaz Müsəlmanları İdarəsi hər zaman məzhəblərin vəhdətlərinə xüsusi önəm verilir".

***Anar Kəlbiyev***

## "Dindarlar arasında radikal fikirlərin yayılmasına çalışması açıq hiss olunur" - Deputat



***"Hazırda bəzi dövlətlərin, o cümlədən İran rejiminin Azərbaycanda dindən siyasi məqsədlər və insanlar arasında qarşıdurma yaratmaq məqsədilə istifadəyə, dindarlar arasında radikal fikirlərin yayılmasına çalışması açıq hiss olunur".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin bu gün keçirilən iclasında deputat Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, həmin qüvvələr dindar insanları siyasi proseslərə və münaqişələrə cəlb edərək onlardan hakimiyyətə qarşı istifadə etməyə, dini məsələləri siyasiləşdirməyə çalışırlar: "Öz növbəsində Azərbaycanın müvafiq dövlət qurumları ölkəmizdə dini durumun sabitliyinin qorunması, dini dözümlülük ənənələrinin qorunub saxlanılması və radikallıq meyllərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirir".

## Lavrov Türkiyəyə gedəcək

***Rusiya xarici işlər naziri Sergey Lavrov Türkiyəyə səfər edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya XİN-nin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib.

O, Lavrovun Türkiyəyə səfərinin aprelin 6-7-də baş tutacağını deyib.



# İsrail Prezidenti Ceyhun Bayramovu qəbul edib

***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsrail Prezidenti İshak Hersoq ilə görüşüb.***

"Unikal" xəbər verir ki, Azərbaycan XİN görüş barədə məlumat yayıb. Bildirilib ki, martın 30-u Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov İsrailə rəsmi səfəri çərçivəsində İsrail Dövlətinin Prezidenti İshak Hersoq tərəfindən qəbul edilib.

Görüşdə, Azərbaycan və İsrail arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, o cümlədən regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 30 il ərzində müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, təhlükəsizlik, mədəniyyət, təhsil, yüksək texnologiyalar, kiber təhlükəsizlik və s. sahələrdə inkişaf edən ikitərəfli əməkdaşlıq gündəliyindən məmnunluqla bəhs edərək, münasibətlərin inkişafında Azərbaycan və İsrail liderləri arasındakı sıx təmasların mühüm rol oynadığını qeyd edib.

2021-ci ildə Azərbaycanın İsraildə Ticarət və Turizm nümayəndəliklərinin, 2023-cü ildə isə Azərbaycanın İsraildə Səfirliyinin açılmasının iki ölkə arasında münasibətlərin inkişafının göstəricisi olduğu diqqətə çatdırılıb.

Azərbaycan və İsrail arasında keçirilən müntəzəm siyasi məsləhətləşmələrin və yüksək səviyyəli səfərlərin iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün əhəmiyyətli rol oynadığı vurğulanıb.

Nazir Ceyhun Bayramov, həmçinin qarşı tərəfi post-münaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə apardığı genişmiqyaslı bərpa və quruculuq barədə ətraflı məlumatlandırıb. Bununla yanaşı, Ermənistan tərəfindən törədilən hərbi-siyasi təxribatlar, öz öhdəliklərindən boyun qaçırmaqla danışıqların imitasiyası, mina təhdidini davam etdirilməsi, öhdəliklərinə uyğun olaraq silahlı qüvvələrini Azərbaycandan çıxarmadığı barədə məlumatlar təqdim olunub. Ermənistanın son həftələrdə təcavüzkar ritorikanı və fəqliyyəti davam etdirdiyi diqqətə çatdırılıb. Azərbaycanın bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi, habelə erməni sakinlərin reinteqrasiyası istiqamətində qərarlı olduğu bildirilib.

Prezident İshak Hersoq, İsrailin öz strateji tərəfdaşı qismində Azərbaycanla münasibətlərin inkişafına önəm verdiyini diqqətə çatdırıb. İki ölkənin xalqları arasında mövcud olan dostluq və həmrəylik ənənələrinin bugün ölkələrimiz arasında inkişaf edən münasibətlərin mühüm tərkib hissəsi olduğu bildirilib. Azərbaycanda yaşayan yəhudi icmasının ikitərəfli münasibətlərə verdiyi müsbət töhfə məmnunluqla qeyd edilib. Azərbaycanın İsraildə Səfirliyinin açılmasının münasibətlərin daha da inkişafında əhəmiyyətli rol oynayacağına dair əminlik ifadə edilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Ölkəmizdə ictimai-siyasi sabitlik qorunur"

## Nəsib Məhəməliyev: "Ara-sıra cinayət törədənlər isə mütləq cəzalarını alacaqlar, xalqımız rahat ola bilər"

***Milli Məclisin deputatı Nəsib Məhəməliyev "Unikal"a müsahibə verib. O, deputat həmkarı Fazil Mustafaya qarşı törədilən silahlı hücumdan, deputatların xidməti silah almaq üçün müraciət edib-etməyəcəyindən, Azərbaycanın İsraildə səfirlik açmasının əhəmiyyətindən və başqa məsələlərdən danışıb.***

***-Nəsib müəllim, martın 28-də deputat həmkarınız Fazil Mustafaya qarşı avtomat silahından atəş açılaraq terror aktı törədilib. F.Mustafa bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb. Ona zəruri tibbi xidmətlər göstərilib və hazırda müalicəsi davam etdirilir. Sizcə, bu hücumu törədənlərin məqsədi nədir?***



-Hörmətli həmkarım Fazil Mustafanın xaincəsinə güllələnməsi dövlətə qarşı törədilmiş terror aktıdır. Bu cinayətin motivləri, törədilməsinin əsl məqsədləri hüquq-mühafizə orqanlarının rəyindən sonra tam bəlli olacaq. Biz ancaq ehtimal edə bilərik ki, bu, Fazil Mustafanın ictimai-siyasi fəaliyyəti, daşıdığı mənəvi dəyərlər və dövlətçilik mövqeyi ilə bağlı ola bilər. Zaman-zaman müəyyən kəsimin Fazil bəyi sosial şəbəkələr vasitəsilə təhqir etməsi, hətta ölümlə hədələməsi barədə məlumatlar var idi. Düşünürəm ki, cinayətkarlar tezliklə ədalət məhkəməsi qarşısında cavab verəcəklər.

***- "Milli Məclisin deputatının statusu haqqında" qanuna əsasən, deputatın təhlükəsizliyini təmin etmək məqsədi ilə ona Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada xidməti silah verilə bilər. Necə düşünürsüz, baş vermiş son hadisədən sonra deputatlar onlara silah verilməsi üçün müraciət edəcəklərmi?***

-Bəli, qanunla deputatlar silah gəzdirə bilər. Amma buna ehtiyac yoxdur. 90-cı illərin əvvəllərində ölkəmizdə anarxiyanın, xaosun hökm sürdüyü vaxt parlament üzvlərinin əksəriyyəti silahla gəzirdi. O vaxtlar rayonda icra başçısı kimi mən də tabel silahı ilə təchiz olunmuşdum. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra dayanıqlı sabitlik yaradıldı və indiyə qədər davam etməkdədir. Müəyyən epizodik istisnalar ola bilər ki, onların da qarşısını kifayət qədər peşəkarlaşmış hüquq-mühafizə orqanlarımız vaxtında alır. Bu hadisədən sonra deputatların silah verilməsi ilə bağlı müraciət edəcəklərini düşünmürəm. Bununla yanaşı hesab edirəm ki, bəzi xarici kəşfiyyat orqanlarının hədəfində olan şəxslərin təhlükəsizliyinə diqqət artırılmalıdır. Kütləvi müraciət üçün heç bir zərurət görmürəm.

***-Son hadisə həm də Azərbaycanın İsraildə səfirliyinin açıldığı günlərə təsadüf etdi. Belə desək, Azərbaycan-İsrail əlaqələri yeni mərhələyə qədəm qoyur. Dost ölkə İsraildə səfirliyimizin açılmasının ölkəmiz üçün hansı üstünlükləri olacaq?***

-Azərbaycanın İsraildə səfirliyinin açılması tarixi hadisədir. Azərbaycan yəhudilərin kompakt və tam təhlükəsiz şəraitdə yaşadığı nadir ölkələrdəndir. Belə bir deyim var - "Dost dar gündə tanınar". 44 günlük Vətən müharibəsində İsrail Azərbaycanın yanında oldu. Səfirliyimizin olmamasına rəğmən, bu ölkə ilə münasibətlərimiz dostluq, qarşılıqlı hörmət əsasında qurulmuşdu. Bundan sonra isə qarşılıqlı əməkdaşlıq daha yüksək templə inkişaf edəcək. İsrail siyasi, iqtisadi, hərbi, texnoloji, mədəni cəhətdən hərtərəfli inkişaf etmiş, dünya miqyasında sayılıb-seçilən güclü dövlətdir. Belə bir dövlətlə müttəfiqlik, dostluq münasibətlərindən xalqlarımız qazanacaq. İsrailin qabaqcıl texnologiyalarının, o cümlədən sənayedə, kənd təsərrüfatında əldə etdiyi təcrübənin ölkəmizdə tətbiq olunması iqtisadiyyatımızın sürətlə inkişafına səbəb olacaq. Müasir dünyada elmin, texnologiyanın inkişafı olmadan digər dövlətlərlə rəqabətə davam gətirmək qeyri-mümkündür. Elm, müasir texnologiya isə İsraildədir. Bu baxımdan, səfirliyin açılması və əməkdaşlıq hər iki tərəfin xeyrinədir.

***-Mart ayında 3 müxtəlif məkanda silahlı insident olub. Sözsüz ki, bunların hər biri fərqli hadisələrdir. Son vaxtlar odlu silahlarla törədilən hadisələr insanlarda narahatlıq yaradır. Bu hadisələrin artması nə ilə bağlıdır?***

-Son vaxtlar Bakıda odlu silahdan istifadə edilməklə törədilən cinayətlər təbii olaraq ictimaiyyəti narahat edir. Amma bu cinayətlərin ümumiləşdirilməsini doğru hesab etmirəm. Hər bir cəmiyyətdə, hətta ən inkişaf etmiş ölkələrdə belə cinayətlər törədilir. Heç bir cəmiyyət cinayətlərdən tam sığortalanmayıb. Burada müxtəlif səbəblər ola bilər. Geosiyasi proseslərdən tutmuş, məişət məsələlərinə, kriminal qrupların davasına qədər. Bu baxımdan, konkret faktlar olmadan qəti fikir səsləndirmək düzgün olmaz. İstintaq orqanlarımız ciddi çalışır. Əsas odur ki, Azərbaycan güclü dövlətdir, beynəlxalq münasibətlər sistemini, təhlükəsizlik sistemini peşəkarcasına mənimsəmiş güclü Lideri, formalaşmış hüquq-mühafizə orqanları var. Ölkəmizdə ictimai-siyasi sabitlik qorunur. Ara-sıra cinayət törədənlər isə mütləq cəzalarını alacaqlar. Xalqımız rahat ola bilər.

***-Son vaxtlar Ermənistandan Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindən qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınması intensivləşib. Potensial təxribatların törədilməsinin qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən lokal zəruri nəzarət tədbirləri həyata keçirilib. Düşmənin bu addımları atmaqda məqsədi nədir və belə hallar yenidən döyüşlərin baş verməsinə səbəb ola bilərmi?***

-Ermənistandan qaçaq yollarla, Rusiya sülhməramlıları vasitəsilə silah-sursat daşınırdı. 10 noyabr razılaşmasına uyğun olaraq Qarabağdan çıxarılmamış terrorçuların şəxsi heyətinin rotasiyası aparılırdı. Son günlər Müzəffər Ordumuz bir neçə hakim yüksəkliyi, əsas və yardımçı yolları, eləcə də sərhədboyu geniş sahələri nəzarətə götürüb. Artıq silah-sursatın, digər hərbi təyinatlı yüklərin daşınmasına imkan verilmir. Düşmənin məqsədi yenidən təşkilatlanmaq, himayədarlarının dəstəyi ilə itirdiklərinin qismən də olsa geri qaytarılmasına nail olmaqdır. Yaxud, separatçıların "statusu" ilə bağlı hansısa imtiyazlar əldə etmək istəyirlər. Təbii ki, biz buna imkan verməyəcəyik. Genişmiqyaslı müharibənin olacağını düşünmürəm. Ermənistan dövləti və ordusu buna hazır deyil. Amma xarici qüvvələrin təsiri ilə lokal döyüşlər ola bilər. Ali Baş Komandan növbəti dəfə Ermənistana və havadarlarına xəbərdarlıq etdi. Düzgün nəticə çıxarmasalar, lazımi əməliyyatların həyata keçirilməsi qaçılmazdır.

***Anar Kəlbiyev***

# Hacıbala Abutalıbova yaxın şirkətin udduğu tenderlərlə bağlı qalmaqallı iddialar

## Böyük məbləğlərlə ifadə edilən satınalma müsabiqələrinin qalibləri necə ola bilər ki, dövlət büdcəsinə borclarını ödəyə bilməsin?

***Yola salmaq üzrə olduğumuz həftə yerli saytların xəbər lentində bir informasiya diqqəti çəkdi. Həmin xəbərdə bildirilirdi ki, "Qaradağ Tibb Mərkəzi" Publik Hüquqi Şəxsi tərəfindən keçirilən tender müsabiqəsinin qalibi məlum olub. Yerli media, daha dəqiq desək, yeniavaz.com açıqlanan rəsmi məlumatlara istinadən bildirib ki, tender müsabiqələrinin qalibi "Svord-A.A. Services" MMC (VÖEN-2003437151) olub.***



"Qaradağ Tibb Mərkəzi" 7 ədəd liftə texniki xidmətin göstərilməsi üçün "Svord-A.A. Services" şirkətinə ümumilikdə 27 min 621 manat 63 qəpik ödəyəcək.

Məlumat üçün qeyd edək ki, "Svord-A.A. Services" MMC son 3 ay ərzində aşağıdakı qurumların analoji tenderlərinin də qalibi olub: "Kliniki Tibb Mərkəz" - 21 264,78 manat; Qazax Rayon Mərkəzi Xəstəxanası - 7 200 manat; "Sanator-Kurort Reabilitasiya Mərkəzi" - 13 027,2 manat; "Uşaq və Yeniyetmələr üçüm Vərəm Sanatoriyası" - 7 200 manat...

O da bildirilirdi ki, bunlardan başqa "Svord-A.A. Services" MMC ötən illərdə də çoxsaylı tenderlərin qalibi olub. Bu şirkət 2022-ci ilin may ayında MİDA-nın 600 000 manatlıq tenderini udub. Mediada yazılanlara görə, "Svord-A.A. Services" MMC 02.07.2015-ci il tarixində dövlət qeydiyyatına alınıb. Hüquqi ünvanı Bakı şəhəri, Xətai rayonu, Fəzail Bayramov ev 15 ünvanında yerləşir. MMC-nin qanuni təmsilçisi Abuşov Anar Şəmdin oğludur. MMC-nin qanuni təmsilçisi Anar Abuşov uzun illər Bakı şəhərinin lift təsərrüfatında müxtəlif vəzifələrdə çalışan Şəmdin Abuşovun oğludur.

"Svord-A.A. Services" MMC-nin qeydiyyatda olduğu hüquqi ünvanda, həmçinin, "Krokus AV S.R.O" şirkətinin Azərbaycandakı filialı (VOEN-2003039731) və Krokus AV S.R.O" şirkətinin Azərbaycandakı nümayəndəliyi (VÖEN - 2003778101) yerləşir.

"Krokus AV S.R.O" şirkəti isə 15 mart 2012-ci ildə Çexiyanın dördüncü böyük şəhəri olan Plzendə qeydiyyata alınıb. Şirkət 2 nəfər Azərbaycan vətəndaşı - 1944-cü il təvəllüdlü Vaqif Xəlilov və 1950-ci il təvəllüdlü Asiya Xəlilova tərəfindən təsis olunub.

Vaqif Xəlilov Çexiyada şirkət təsis etməzdən cəmi 2 ay əvvəl Bakı Şəhər İcra Hakimiyyətinin Şəhər Mənzil Kommunal Təsərrüfat Departamentinin tərkibindəki "Bakılifttəmir" İstehsalat Birliyinin baş direktoru vəzifəsindən azad olunub.

Şirkətin Bakıdakı Nümayəndəlik və Filialına isə Vaqif Xəlilovun oğlanları İlkin və Emil Xəlilovlar rəhbərlik edir.

Emil Xəlilov eyni zamanda "Bakı Otis Lift" QSC-nin (VÖEN - 1400336121) də rəhbəridir.

Yazının əvvəlində qeyd etdiyimiz Şəmdin Abuşov da bir müddət "Bakı Otis Lift" QSC-yə rəhbərlik edib və 2020-ci ildə dünyasını dəyişib.

Adları qeyd olunan bu şirkətlər dövlət qurumlarının keçirdiyi dəyəri milyonlarla manat olan yüzlərlə tender müsabiqəsində qalib olurlar. Maraqlıdır ki, böyük məbləğdə tender müsabiqələri udmalarına baxmayaraq hazırda QSC-nin dövlət büdcəsinə 80 min 763 manat 91 qəpik vergi borcu var.

"Unikal"ın araşdırması zamanı o da aydınlaşıb ki, haqqında bəhs olunan Vaqif Xəlilov vaxtilə Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş başçısı Hacıbala Abutalıbova yaxın kadr kimi tanınıb. Lakin 2012-ci ildə Abutalıbov meriyanın Mənzil Kommunal Təsərrüfat Departamentinin rəhbəri Ənvər Quliyevi tutduğu vəzifədən azad edib. Bununla da kifayətlənməyib və adıçəkilən Departamentin tərkibindəki "Bakılifttəmir" İstehsalat Birliyinin baş direktoru Vaqif Xəlilovu da təqaüdə göndərib. Onun yerinə isə Qüdrət Şükürov təyin olunub. Yeri gəlmişkən, Şükürov cəmi 6 il sonra qalmaqallı şəkildə postundan uzaqlaşdırıldı. Belə ki, onun işdən çıxarılmasının səbəbi kimi qızına dəbdəbəli toy etməsi göstərilirdi. Həmin vaxt yayılan məlumatlarda bildirilirdi ki, Qüdrət Şükürov həmin toy üçün 400 min manat xərcləyib. İctimai müzakirələrə səbəb olan bu hadisə sonda Qüdrət Şükürovun işdən çıxarılması ilə nəticələnib. O, vəzifəsini itirəndən sonra "Bakılifttəmir" İstehsalat Birliyindəki mənimsəmələrlə bağlı Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə və ya israf etmə - xüsusi ilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb. Ayrıca Qüdrət Şükürova qarşı da Cinayət Məcəlləsinin 193-1 (Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma) maddəsi ilə ittiham irəli sürülüb.

Qayıdaq V.Xəlilova... Bəzi iddialara görə, onun işdən azad edildikdən sonra tamamilə biznesə yönəlməsi H.Abutalıbovun sayəsində mümkün olub. Belə ki, sabiq merin keçmiş kadrına tam dəstək verdiyi yönündə söyləntilər dolaşır. İddia müəlliflərinin fikrincə, güclü himayədar olmadan "Bakılifttəmir" İstehsalat Birliyinin sabiq baş direktoruna məxsus şirkətin böyük məbləğlə ifadə edilən tenderlərin qalibi olması ağlabatan deyil.

*Toğrul Əliyev*

# Azərbaycanlılara qarşı soyqırım faktları ilə bağlı cinayət işi başlandı




***Azərbaycanlıların kütləvi şəkildə deportasiya, təqib və soyqırıma məruz qoyulması faktları əsasında cinayət işi başlanıb.***

Bu barədə "Unikal"a Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, "Qərbi Azərbaycan İcması" İctimai Birliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının müraciəti əsasında Azərbaycanın Baş Prokurorluğunun İstintaq idarəsində araşdırma aparılıb.

Azərbaycan Dövlət Arxivində saxlanılan sənədlərə əsasən, XX əsrin əvvəlindən başlayaraq erməniəsilli şəxslərin rəhbərliyi ilə yaradılmış silahlı birləşmələr tərəfindən Qərbi Azərbaycan torpaqlarında yaşayan Azərbaycanəsilli şəxslərə qarşı sülh və insanlıq əleyhinə, şəxsiyyət əleyhinə cinayətlərin törədilməsinə yönəlmiş aktiv hərəkətlərin icrasına başlanılıb.

Belə ki, erməni silahlı dəstələri tərəfindən 1918-ci ilin mart ayınadək İrəvan quberniyasının İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Novo-Bəyazid qəzasında 7 və Sürməli qəzasında 75 - ümumilikdə 198 kənd dağıdılıb, həmin qəzalarda təqribən 135 min nəfər azərbaycanlı soyqırıma və məcburi deportasiyaya məruz qoyulub.

Eyni cinayətkar məqsədlə 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün edilib, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi iztirablara dözməyərək həlak olub.

Bundan başqa, 1988-1992-ci illər ərzində qeyd olunan cinayətlər planlı şəkildə davam etdirilib, Ermənistan hökuməti, "Qarabağ" və "Krunk" komitələri tərəfindən Qərbi Azərbaycanın 185 yaşayış məntəqəsindən 250 mindən artıq azərbaycanlı öz doğma torpaqlarından, ev-eşiyindən zorla qovulmaqla deportasiyaya və təqibə, 216 azərbaycanlı erməni silahlı qüvvələri tərəfindən xüsusi amansızlıqla qəsdən öldürülməklə soyqırıma məruz qoyulub.

Qeyd olunan faktlarda beynəlxalq və ölkədaxili qanunvericilikdə nəzərdə tutulan cinayətlərin əlamətləri olduğuna görə həmin xüsusatlar üzrə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Cinayət Məcəlləsinin 103 (soyqırım), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə)maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Cinayət işi üzrə ibtidai istintaqın gedişində xarici ölkələrin prokurorluq orqanlarına hüquqi yardım haqqında vəsatətlərin göndərilməsi və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi nəzərdə tutulur.

# Notariuslara yeni hüquq verilir



***Notariuslara daha bir hüquq verilir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Layihəyə əsasən, notariuslar artıq kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnaməsini və nizamnaməsini elektron informasiya sistemləri vasitəsilə elektron sorğu əsasında əldə edə biləcək. Qüvvədə olan qanuna görə notariuslar yalnız kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar sorğu əsasında əldə edə bilir.

# “Ramiz Mehdiyev yoxlama apardı, 2 milyon yeyinti aşkarlandı”

## AMEA-nın işçilərinin məhkəməsində ilginc məqamlar üzə çıxdı



***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun sabiq əməkdaşları - tarixçi alim Səbuhi Hüseynov və həyat yoldaşı Gülüstan İsayevanın cinayət işi üzrə məhkəmə araşdırması davam etdirilib.***

”Unikal” apa-ya istinadən xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən iclasa sədrlik edən hakim Azad Məcidov təqsirləndirilən Səbuhi Hüseynovu sorğu-sual edib.

Hakim Səbuhi Hüseynovdan ilk olaraq hansı rayonlarda ekspedisiya apardığını və gördüyü işlərin nəticəsi barədə soruşub:

“2019-cu ilin 7 ayı ərzində 60 ekspedisiya aparmısınız, həmin ekspedisiyalarda nə icad eləmisiniz? Hansı işləri görmüsünüz?”

Səbuhi Hüseynov suala cavab olaraq deyib ki, onun ekspedisiyaları kəşfiyyat xarakteri daşıyıb, mindən artıq tarixi abidəni tədqiq edib: “Mən müəyyən etdim ki, Ağdam və Ağcabədi rayonunda 150-dən çox tarixi abidənin yeri məlum deyil, bunlar araşdırılmalıdır. Ora tədqiqatçılar aparmışam, gördüyüm işlərin də hesabatını vermişəm”.

Hakimi maraqlandıran digər məsələ isə ekspedisiya müddətində xərclənən pulların mənbəyi ilə bağlı olub. Hakim təqsirləndirilən şəxsə ekspedisiyanın hər günü üçün cəmi 40 manat pul ayrıldığını nəzərdə tutaraq “Siz 40 manatla nə yeyib-içmisiz, harda qalmısız, bilirəm ki, hotellərin qiyməti çox bahadır. Elə mən Naxçıvanda bir gecə qalmağa görə hotelə 150 manat verdim. Bundan başqa, 4 rayona gedib-gəlmisiz, mən hesablayıram 40 manat heç sizin maşının benzin pulunu ödəmir”, - deyə bildirib.

Səbuhi Hüseynov 40 manatın yalnız yemək xərci üçün verildiyini, digər təminatlar üçün isə şəxsi vəsaitini istifadə etdiyini deyib: “Tərtər, Bərdə, Ağdam və Ağcabədi rayonlarında ekspedisiyada olduğum müddətdə bizim heyətdən heç kimə qalmaq üçün pul verilməyib. Tədqiqatlara görə öz cibimdən pul ödəmişəm. Özüm də həmin müddətdə bacanağımın evində qalmışam”.

Daha sonra təqsirləndirilən Gülüstan İsayeva sərbəst ifadə verib.

Təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş ittihamların əsassız olduğunu deyib.

Gülüstan İsayeva institutda olan qanunsuzluqlara görə, sabiq direktor Maisə Rəhimovanı ittiham edib: “Əvvəllər işlədiyim müddət ərzində heç vaxt töhmətim olmayıb. İnstitutda hökm sürən qanunsuzluqlara etiraz etməyə başlayandan sonra vəziyyət dəyişdi. Maisə Rəhimova işə ştatdan kənar adamlar götürürdü. İnstitutun 299 nəfər işçisi var idi, amma 50-60 nəfər işə gəlirdi. Maisə Rəhimova özünə və xaricdə olan qohumlarına mükafat yazırdı. Təsəvvür edin, xaricdə yaşayan şəxslər hər ay institutdan əməkhaqqı alırdı. Bundan başqa, Şəki və Tovuzda yaşayan şəxslərə pul ayrılırdı, guya Bakıdan ora ezamiyyətə gedirlər. Halbuki adamlar elə orda yaşayırlar. Həmçinin Naxçıvan Dövlət Universitetində işləyən bir neçə nəfərə eyni adla pul köçürülüb. Sənədlərdə də qeyd olunurdu ki, Bakıdan Naxçıvana ezam olunublar”.

Gülüstan İsayevanın dediyinə görə, 2021-ci ildə Ramiz Mehdiyev Akademiyanın prezidenti olarkən institutdakı qanun pozuntuları ilə bağlı yoxlama aparılıb, 2 milyon 330 min manat yeyinti aşkar olunub: “Müəyyən olundu ki, həqiqətən də institutda qanun pozuntuları olub. İşləməyən adamlara əmək haqları ödənilib, görülməyən işə görə pullar xərclənib. Amma sonra necə oldusa aşkar olunan qanunsuzluqlarla bağlı hüquq-mühafizə orqanlarına məlumat göndərilmədi. Maisə Rəhimova işdən çıxarıldı, mənim də barəmdə cinayət işi başlanıldı. Halbuki, mənim şikayətimlə yoxlama aparılmışdı”.

Prokurorun “Maisə Rəhimova vəzifəsindən azad olunduqdan sonra sizi nəyə görə işdən çıxardılar” sualına isə Gülüstan İsayeva “Sonra təyin olunan direktor da Maisə Rəhimovanın adamı olduğuna görə”, cavabını verib.

Proses aprelin 5-də davam etdiriləcək.

Qeyd edək ki, Səbubi Hüseynov Azərbaycan Milli Elmlər Akademiyasında elmi işçi, onun həyat yoldaşı Gülüstan İsayeva isə kadrlar şöbəsinin müdiri olub. Onlar Qarabağda tədqiqat aparılması məqsədilə ayrılmış vəsaitlərin 92 min manatını mənimsəməkdə ittiham olunurlar.

Təqsirləndirilən şəxslərə qarşı Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israfetmə) və 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313(vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb. Onların hər ikisi barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib.

# Bəzi məmurların dərman oyunu

## Dərmanların qiyməti artıqca keyfiyyəti azalır, üstəlik, qıtlıq yaranır - İlginc təfərrüatlar...

***Yola salmaq üzrə olduğumuz həftə ölkədəki dərman qıtlığı parlamentdə ciddi müzakirə mövzusu oldu. Milli Məclisin səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov “Dərman vasitələri haqqında” qanuna təklif edilən dəyişikliyin müzakirəsi zamanı sualı konkret qoydu: “Bizim ölkədə qonşu ölkələrə baxanda dərmanların qiyməti 3-4 dəfə bahadırsa, nəyə görə dərman tapılmır?”***

“Ölkədə ən vacib olan dərmanları tapmaq qeyri-mümkündür. Biz şirkətlərə sual edirik, ölkədə dərman qiymətləri bu qədər bahadırsa, niyə o bəzi dərmanları baha qiymətə satır. Məsələn, ölkədə qeydiyyatdan keçən təxminən 3000 aptekdən 10-u bu addımı atır”, - bunu isə deputat Kəmaləddin Qafarov bildirib.

Elə həmin gün Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi Milli Məclisin səhiyyə komitəsinin “Dərman vasitələri haqqında” qanuna təklif edilən dəyişikliyin müzakirəsi zamanı dərmanların keyfiyyəti və çatışmazlığı ilə bağlı səsləndirilən fikirlərə münasibət bildirdi. Mərkəzdən APA-nın sorğusuna cavab olaraq bildirildi ki, ölkədə dərman vasitələrinin çatışmazlığı və onların keyfiyyəti barədə yayılan məlumatlardan



dərmanları gətirməkdə maraqlı deyillər?”, - deputat əlavə edib.

Milli Məclisin səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov isə açıq şəkildə bildirib ki, dərmanların ölkəyə gətirilməsi məsələsi mütləq sadələşdirilməli, bürokratik əngəllər aradan qaldırılmalıdır: “Hesab edirəm ki, bütün bu prosesdən sonra qiymətlərdə müəyyən dəyişikliklər ola bilər”.

“Hazırda ölkədə dərman çatışmazlığı var, bəzən dərmanların keyfiyyəti məsələsi gündəm olur, şikayətlər olur. Həmçinin dərmanların qiyməti məsələsi də narazılıq yaradır. Dünən mən görüşdə idim, orada məhz bu məsələ ilə bağlı müraciətlər oldu. Hesab edirəm ki, bütün bu hallar nəzərə alınmalıdır” - deyə Əmiraslanov əlavə edib.

”Bir neçə aptek var ki, onlar xəbərdardırlar: “Analitik Ekspertiza Mərkəzinin (AEM) səlahiyyətinə ölkəyə rəsmi yolla idxal edilən dərman vasitələrinin sənədlərinin uyğunluğunun yoxlanılması, tərkibinin laborator analizi və idxal icazəsinin verilməsi daxildir. AEM laboratoriyasından keçən və Səhiyyə Nazirliyi tərəfindən nəzarət markası alan istənilən dərman vasitəsinin onun istehsalçısı tərəfindən içlik vərəqəsində qeyd edilən saxlanma şərtlərinə riayət edildiyi təqdirdə mərkəz tərəfindən onun keyfiyyətinə zəmanət verilir.

Bu məsələ ilə bağlı dəfələrlə əhaliyə müraciət edilib ki, apteklərdə qutusunda nəzarət markası və Azərbaycan dilində içliyi olmayan, respublikaya qeyri-qanuni yollarla gətirilən və ya gözlənilən təsiri olmayan hər hansı dərman vasitələri ilə bağlı bizə məlumat verə bilərlər. Belə hallarla rastlaşdıqda vətəndaş AEM-in “Bir pəncərə” sektoruna müraciət edə və ya “qaynar xətt”lə əlaqə saxlaya bilər. Həmçinin, vətəndaşlar AEM-in pharma.az saytının MÜRACİƏT bölməsinə daxil olaraq, əldə edilən dərmanın qutusunun şəklini, alış çekini və alınan ünvanı yükləyərək ölkəyə qeyri-qanuni yolla gətirilən dərman vasitəsi barədə məlumat verə bilərlər. Belə olan halda AEM göstərilən əczaçılıq təşkilatında şikayətdə qeyd olunan dərman vasitəsi ilə bağlı araşdırma apararaq, müvafiq tədbirlər görür.

Ölkəyə dərman vasitələrinin gətirilməsinin sadələşdirilməsi barədə səsləndirilən fikirlərlə bağlı isə onu deyə bilərik ki, Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi icraedici orqandır və onun fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir. Əgər qanunvericilikdə dəyişikliklər olarsa, AEM də həmin dəyişikliklərə uyğun fəaliyyət göstərəcək”.

Lakin göründüyü kimi, sözügedən Mərkəz bu dəfə də problemə ümumi sözlərlə münasibət bildirib və cəmiyyət üçün yeni heç nə deməyib. Belədə isə məlum problemin həllinə ümid bəsləmək çətindir. Halbuki, əgər dərmanların keyfiyyəti, qiyməti və çatışmazlığı artıq Milli Məclis səviyyəsində müzakirə edilirsə, bu, problemin kifayət qədər ciddi xarakter aldığını və operativ şəkildə aradan qaldırılmağa ehtiyac olduğunu ortaya qoyur.

Üstəlik, millət vəkilləri bürokratik əngəllərdən danışırsa, belə çıxır ki, sözügedən məsələ kimlərinsə süni maneəsi nəticəsində meydana çıxıb. Məsələn, bir sıra ekspertlərin fikrincə, dərman preparatlarının qiymətlərinin tənzimlənməsi yönündə Tarif Şurasının qərarlarını anlayışla qarşılamaq mümkün deyil. Hesab edilir ki, bu tənzimləmə siyasətinin tamamilə yanlış olduğunu dərmanların qiymətləri bahalaşadığı halda onların keyfiyyətinin aşağı düşməsindən açıq-aşkar görmək mümkündür. Üstəlik, sözügedən tənzimləmə mexanizminin başqa bir mənfi tərəfi də var: bazarda onlarla kiçik, orta dərman şirkətləri var idi və bu da rəqabəti gücləndirən amil idi, lakin Tarif Şurasının tənzimlənmə mexanizmindən sonra həmin şirkətlərin böyük əksəriyyəti rəqabətə dözməyərək bağlandı...

**Sənan Mirzə**

# Dövlət Sosial Müdafiə Fondunda Səlim Müslümovdan qalan ənənə...

## İcarəyə götürülən binalar üçün hər il böyük məbləğdə pullar ödənilir

***Bir müddət əvvəl yerli KİV yazırdı ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Sosial Müdafiə Fondunun (DSMF) elan etdiyi tender müsabiqəsinin qalibi məlum olub. Belə ki, DSMF Sosial Ödənişlərin Təyinatı üzrə Mərkəzi Filialı üçün ofis sahəsinin icarəyə götürülməsilə bağlı tender müsabiqəsi həyata keçirmişdi. Müsabiqənin qalibi isə Bayramov Amil Qinyaz oğlu (VÖEN - 1003009142) olmuşdu. DSMF ona məxsus 3000 kv. metr qeyri-yaşayış sahəsini 9 ay müddətinə icarəyə götürəcək, əvəzində icarə haqqı olaraq A.Bayramova 445 min 500 manat (ayda 49 min 500 manat) ödəyəcəkdi.***

Maraqlıdır ki, DSMF əvvəlki illərdə də Amil Bayramov ilə analoji müqaviləni imzalayıb.

O da maraqlıdır ki, araşdırmalar qurumun bir çox ofis sahələrini icarəyə götürməsindən xəbər verir. Məsələn, bir yaxınlarda DSMF-nin Maliyyə və Mühasibatlıq üzrə Mərkəzi Filialı üçün ofis sahəsinin icarəyə götürülməsilə bağlı tender müsabiqəsi həyata keçirilib. Müsabiqənin qalibi Hüseynova Almaz Hacı qızı (VÖEN - 1307950442) olub. DSMF Hüseynova Almaz Hacı qızına məxsus 2200 kv. metr qeyri-yaşayış sahəsini 9 ay müddətinə icarəyə götürüb və 240 min 702 manat ödəyəcək.



Əvvəlki illərdə isə DSMF Maddi-Məişət Şəraitinin Müayinəsi üzrə Mərkəzi Filialı üçün 3000 kv. metr ofis sahəsini icarəyə götürüb və Həsənova Qaze Həsən qızına (VÖEN - 1600110362) 12 ay üçün 556 min 200 manat ödəyib.

DSMF Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı üçün 1900 kv. metr ofis sahəsini icarəyə götürüb və Kərimov İlqar İsmayıl oğluna (VÖEN - 1505343002) 12 ay üçün 167 min 808 manat ödəyib.

DSMF Məhkəmə Mübahisələri ilə iş üzrə Mərkəzi Filialı üçün 1000 kv. metr ofis sahəsini icarəyə götürüb və "Çinar Park" MMC (VÖEN - 1500764231) 12 ay üçün 148 min 680 manat ödəyib. DSMF Sosial Sığorta və Fərdi Uçot üzrə Mərkəzi Filialı üçün 3000 kv. metr ofis sahəsini icarəyə götürüb və Bakı Avrasiya Universitetinə (VÖEN - 1500008331) 12 ay üçün 630 min manat ödəyib.

Nümunələrin sayını artırmaq olar.

Görünən odur ki, adıçəkilən qurum hər il ofis sahələrinin icarəsi üçün yüzminlərlə manat xərcləyir. Bəs bu nə qədər səmərəlidir? DSMF-nin tabeliyindəki hər hansı mərkəz və ya filial üçün ofis inşa etdirməsi daha ucuza başa gəlməzmi? Cəmi 2-3 ilin icarə haqqı ilə buna nail olmaq olmazmı?

Yeri gəlmişkən, DSMF-də ofis sahələrinin icarəyə götürülməsi praktikası xüsusilə sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun zamanında geniş vüsət alıb. Müslümovun nazir olduğu vaxt təkcə adıçəkilən Fond üçün deyil, nazirliyin tabeliyindəki başqa qurumlar üçün də hər il kifayət qədər böyük məbləğlərə ofis sahələri icarəyə götürülüb. Həmin prosesin nə qədər şəffaf həyata keçirildiyi isə şübhə altındadır.

Qeyd edək ki, Azərbaycanda bir çox iş adamlarının, sahibkarların dövlət qurumlarına ofis kirayələməkdən hər il böyük məbləğdə qazanc əldə etməsi uzun müddətdir ki, müzakirə mövzusudur. Məsələn, ötən ay xəbər yayıldı ki, Dövlət Əmək Müfəttişliyi Xidməti inzibati bina sahəsinin icarəsi üçün elan etdiyi tenderə yekun vurub. Müsabiqənin qalibi isə fərdi sahibkar Qiyasov Alim Yusif oğlu olub. Xidmətlə sahibkar arasında bağlanacaq müqavilənin maliyyə dəyəri 169.428,6 AZN təşkil edib. Tenderin şərtlərindən aydınlaşıb ki, inzibati bina sahəsi Xidmətin aparatı üçün icarə götürülür. İcarə müddəti isə 6 aydır. Beləliklə, aydın olur ki, Xidmət sahibkara icarə haqqı olaraq hər ay üçün 28 231 AZN ödəyəcək. Binanın sahəsi isə 1980 kvadratmetrdir. "Qaynarinfo" yazıb ki, Alim Qiyasovun adı yerli mediada iş adamı kimi keçir. O, bu ilin yanvarında Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın da inzibati bina sahəsinin icarəsi xidmətinin satın alınması ilə bağlı keçirdiyi tenderin də qalibi elan edilib. Satınalma müqaviləsinin maliyyə dəyəri 347 814 AZN olub. Diqqətçəkən məqam isə odur ki, adıçəkilən sahibkarla bağlı açıq mənbələrdə bundan başqa hər hansı məlumata rast gəlinmir.

Daha bir ilginc məqam: Azərbaycanda bir çox iş adamlarının, sahibkarların dövlət qurumlarına ofis kirayələməkdən hər il böyük məbləğdə qazanc əldə etməsi fonunda bu cür tenderlərin formal xarakter daşıdığı, belə qurumların daha çox özlərinə yaxın daşınmaz əmlak sahiblərindən ofis icarəyə götürdüyünə dair iddialar var...

***Toğrul Əliyev***

# Keçmiş nazir müavininə yeni vəzifə verildi



***Ekologiya və təbii sərvətlər nazirinin keçmiş müavini Firdovsi Əliyevə yeni vəzifə verilib.***

"Qafqazinfo"nun məlumatına görə, o, ekologiya və təbii sərvətlər nazirinin müşaviri vəzifəsinə təyin edilib. Müvafiq əmri nazir Muxtar Babayev imzalayıb.

Qurumun mətbuat katibi İradə İbrahimova məlumatı təsdiqləyib.

Qeyd edək ki, F. Əliyev bu ay Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə nazir müavini vəzifəsindən azad edilib. Onun yerinə nazirliyin Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva təyin edilib.

# Rövşən Rzayev Nuno Querios ilə görüşdü

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev BMT İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Nuno Querios ilə görüşüb.***



"Unikal" xəbər verir ki, qonağa qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması və mövcud problemlərinin həlli istiqamətində həyata keçirilən dövlət tədbirləri, həmçinin Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində icra edilən işlər barədə məlumat verilib.

Bildirilib ki, Ermənistanın işğalçılıq siyasəti nəticəsində daimi yaşayış yerini itirərək uzun illər məcburi köçkün vəziyyətində yaşayan vətəndaşların mərhələli şəkildə qayıdışının təmin edilməsini Prezident İlham Əliyev prioritet vəzifə kimi müəyyənləşdirib, Birinci vitse-prezident Mehriban xanım Əliyeva onların problemlərinin həllinə daim həssaslıqla yanaşır.

Bildirilib ki, dövlət tərəfindən işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması istiqamətində iş aparılır, irimiqyaslı layihələr həyata keçirilir. Məcburi köçkünlərin beynəlxalq hüququn prinsiplərinə əsasən könüllü, təhlükəsiz və ləyaqətlə qayıdışının təmin edilməsi, doğma yurd yerlərində dayanıqlı məskunlaşmasının təmin edilməsi üçün tədbirlər görülür. Məcburi köçkünlər arasında keçirilən sorğular zamanı onların mütləq əksəriyyəti işğaldan azad olunmuş ərazilərə qayıtmaq niyyətində olduğunu bildirib.

Diqqətə çatdırılıb ki, işğaldan azad edilmiş ərazilərdə mina təhlükəsinin qalması, ağır nəticələrə və insan tələfatına səbəb olması, həmçinin Ermənistanın 44 günlük müharibədəki məğlubiyyətdən sonra da torpaqlarımızda mina terroru törətmək cəhdləri Böyük Qayıdışın daha da sürətləndirilməsini əngəlləyir. Eyni zamanda, BMT İnkişaf Proqramının ölkəmizdə minatəmizləmə potensialının gücləndirilməsinə və genişləndirilməsinə dəstək verməsindən məmnunluq ifadə olunub. Beynəlxalq təşkilatların, xüsusi ilə BMT təsisatlarının ölkəmizdə qaçqınlıq və məcburi köçkünlük probleminin həllində iştirakı da yüksək qiymətləndirilib.

Nuno Querios səmimi görüş üçün təşəkkür edib, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi və geriyə qayıdacaq sakinlərin dayanıqlı məskunlaşmasının təmin edilməsi üçün dövlət tərəfindən həyata keçirilən layihələrdə mümkün əməkdaşlığa hazır olduqlarını bildirib. Qeyd olunub ki, hazırda BMTİP, Dövlət Komitəsi və digər qurum və təşkilatlara birgə icra edilən "İqtisadi və sosial iştirakın artmasına mane olan əngəlləri aradan qaldırmaq üçün Azərbaycanda münaqişədən təsirlənmiş həssas qruplara daxil olan qadınların səlahiyyətlərinin artırılması və onlar üçün bərabər imkanların yaradılması" layihəsi çərçivəsində münaqişələrdən təsirlənmiş qadınların münaqişə və travmalara qarşı dayanıqlılığının artırılması məqsədi ilə Bərdə, Ağcabədi və Tərtər rayonlarında yeni yaradılmış Qadın Resurs Mərkəzləri fəaliyyət göstərir. Bu istiqamətdə tədbirlər davam etdiriləcək.

# Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə yeni səlahiyyət verildi




***Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə yeni səlahiyyət verilib.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin müvafiq fərmanında əksini tapıb.

Fərmana əsasən, Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yol hərəkətinin müvəqqəti məhdudlaşdırılması və ya qadağan edilməsi haqqında qərar qəbul edə biləcək.

Yol hərəkəti qaydalarının pozulmasına görə cərimələrdən Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə də vəsait köçürüləcək.

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin müvafiq fərmanında əksini tapıb.

Fərmana əsasən, yol hərəkəti təhlükəsizliyini təmin etmək və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydalarının pozulmasına görə İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən, nəqliyyat vasitələrinin müşayiət olunması və haqqı ödənilən digər əlavə xidmətlərdən daxil olan vəsaitin 93 faizi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Bakı Nəqliyyat Agentliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi hesabına, 7 faizi isə dövlət büdcəsinə köçürülür.

# Maşın sifariş edənlərin nəzərinə

## Qərar bu şəxslərə şamil olunmayacaq - RƏSMİ



***Nazirlər Kabinetinin 29 mart tarixli qərarı ilə artıq zavod buraxılış tarixi 10 ildən çox olan minik avtomobillərinin Azərbaycana gətirilməsi məhdudlaşdırılacaq. Bir aydan sonra qərar qüvvəyə minir.***

Bir çox şəxslər avtomobillərini artıq sifariş edib və onların gətirilməsi qərarın qüvvəyə minəcəyi tarixdən sonra olacaq. Bəs onlarla bağlı hansı addım atılacaq?

Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib ki, qərarın imzalandığı 29 mart tarixinə qədər (29 mart daxil olmaqla) maşınlarını sifariş edib, ödənişlərini edənlərə güzəşt ediləcək.

"Onların sifariş etdikləri avtomobillər Azərbaycana buraxılacaq. Qərarın geriyə qüvvəsi yoxdur. Qərar 29 martdan sonrakı hadisələrə şamil olunur. 29 mart daxil olmaqla sifariş olunan və ödəniş olunan avtomobillərin Azərbaycana buraxılacaq".

# Samuxda istixanada nöqsanlar aşkarlandı



***Samuxda fəaliyyət göstərən istixanada bir sıra nöqsanlar aşkar edilib.***

Bu barədə "Unikal"a Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib.

Bildirilib ki, Agentlik əməkdaşları tərəfindən Samux rayonu, Əhmədbəyli kəndində yerləşən Mirzəyev Səyavuş Suliddin oğluna məxsus istixanada aparılmış planlı yoxlama zamanı bir sıra nöqsanlar aşkar edilib.

Belə ki, işçi heyətin tibbi müayinədən keçmədiyi və xüsusi geyimlə təmin olunmadığı, həmçinin saxlanma anbarında istifadə müddəti bitmiş üç adda pestisid və aqrokimyəvi maddə müəyyən edilib. Aşkar olunmuş nöqsanlarla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilib və icrası məcburi göstərişlər verilib.

# Dövlət Komitəsinin sabiq rəisinin şirkətinə "saxta sertifikat" ittihamı

## Son olaraq 26 sayda uyğunluq sertifikatı qanunsuz sayılan Mənsim Babayev daha əvvəl eyni əmələ görə cərimələnibmiş

***Iqtisadiyyat Nazirliyinin Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti sertifikatlaşdırma fəaliyyəti ilə məşğul olan akkreditasiya edilmiş qurumların fəaliyyətinə nəzarəti davam etdirir.***

Xidmətdən daxil olmuş məlumatda bildirilir ki, aparılan araşdırmalar nəticəsində sertifikatlaşdırma fəaliyyəti ilə məşğul olan bir sıra qurumlar tərəfindən uyğunluq sertifikatlarının qanunsuz verilməsi halları aşkar olunub.

Belə ki, malın (xidmətin, işin) sertifikatlaşdırılması fəaliyyətini həyata keçirən "Azunisert" MMC tərəfindən müxtəlif təsərrüfat subyektlərinə verilən 26 sayda, "Aqrosert" MMC tərəfindən 4 sayda, "Az-Quality Cert" MMC tərəfindən 10 sayda və "Certus" MMC tərəfindən 11 sayda uyğunluq sertifikatında akkreditasiya sahəsindən kənaraçıxma halları, yəni akkreditasiya nişanından fəaliyyət sahəsinə uyğun istifadə edilmədiyi müəyyən edilib.

Həmin sertifikatların ləğvi ilə bağlı şirkətlərə yazılı göstərişlər verilsə də, Dövlət Xidmətinin göstərişləri yerinə yetirilməyib. Müvafiq sahədə qanunvericiliyin tələblərinə əməl etməyən şirkətlər barəsində İnzibati Xətalar Məcəlləsinin tələblərinə uyğun protokollar tərtib edilib və baxılması üçün məhkəmə orqanlarına göndərilib.

"Unikal"ın araşdırması nəticəsində məlum olub ki, şaxta uyğunluq sertifikatı verən şirkətlərdən birinə ləğv edilən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin texniki tənzimləmə və standartlaşdırma üzrə dövlət nəzarət xidmətinin şöbə rəisi




Mənsim Babayev rəhbərlik edir. Söhbət "Azunisert" MMC-dən gedir. Babayevin baş direktor olduğu bu şirkətin qanuni təmsilçisi isə Fərid Zakirli Qoxmaz oğludur.

Üstəlik, sabiq rəisin rəhbərlik etdiyi "Azunisert" saxta uyğunluq sertifikatları verməsi səbəbilə bu yaxınlarda cəzalandırılıb. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin araşdırmaları zamanı şirkət tərəfindən müxtəlif qurumlara verilmiş uyğunluq sertifikatlarının bir qismində akkreditasiya sahəsindən kənaraçıxma və akkreditasiya haqqında qanunvericiliyin bir sıra tələblərinin pozulması halları müəyyən olunub. Bu isə inzibati xəta tərkibi yaratdığından, qurum barəsində İnzibati Xətalar Məcəlləsinin 538-1.2-ci maddəsinə əsasən inzibati xəta haqqında protokol tərtib edilib. Məhkəmənin qərarı ilə şirkət rəhbəri olan sabiq rəis İnzibati Xətalar Məcəlləsinin 544.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanı törətməkdə təqsirli bilinib. Nəticədə M.Babayev barəsində 4000 manat məbləğində inzibati cərimə növündə tənbeh tədbiri tətbiq olunub.

Qeyd edək ki, iki il öncə sabiq rəsi yerli KİV-ə açıqlamasında fərqli sahələr üzrə uyğunluğun qiymətləndirilməsi ilə məşğul olduqlarını bildirib: Sitat: "Biz elektronika sənayesi, mühəndislik məhsulları, tikinti, yol və kommunal mühəndislik məhsulları, yanğın təhlükəsizliyi cihazları, metal emalı avadanlıqları, meşə emalı məhsulları, hesablama avadanlığı, fərdi kompüterlər və digər istehlak mallarının uyğunluğunun qiymətləndirilməsi ilə məşğul oluruq. "Azunisert" uyğunluq qiymətləndirmə şirkəti olaraq, rabitə vasitələri, tikinti materialları, avtomobillər və onların ehtiyat hissələri, yüngül sənaye məhsulları, neft və neft-kimya məhsulları, qida və qeyri-ərzaq məhsulları daxil olmaqla, bununla məhdudlaşmayan geniş çeşidli məhsul və xidmətlərin sertifikatlaşdırılması təmin edir".

Onu da deyək ki, uyğunluğun qiymətləndirilməsi, malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun standartlarda və ya texniki reqlamentin tələblərinə uyğunluğunun müəyyən edilməsi prosesdir.

Sertifikatlaşdırmanın əsas məqsədi insan həyatı, sağlamlığı, əmlak və ətraf mühit üçün təhlükəli olan məhsulların (proseslərin, xidmətlərin) buraxılmasının və satışının qarşısını almaq, istehlakçılara məhsulların (proseslərin, xidmətlərin) düzgün seçilməsində kömək etmək, beynəlxalq iqtisadi, elmi-texniki əməkdaşlıq və beynəlxalq ticarət üçün sağlam zəmin yaratmaqdır.

***Toğrul Əliyev***

# "Azərbaycan islam əxlaqı ilə yaşadığı üçün ondan kənara çıxa bilməz" - Komitə sədri

***"Azərbaycanda dövlət-din münasibətləri kifayət qədər həssas məsələdir". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin bu gün keçirilən iclasında komitə sədri Fəzail İbrahimli deyib.***

O bildirib ki, Azərbaycan 70 il kommunist rejimi dövründə yaşayıb: "Bu ideologiyanın ana xətti ondan ibarət idi ki, din xalq üçün tiryəkdi. Bu ideologiyanın təsiri altında yeni nəsil böyüdü, kommunist əxlaqı yarandı. SSRİ adlanan məkanda



dinsiz bir dünya həyat sürməyə başladı. Onun özü də sonda məscidlərin, kilsələrin fəaliyyətinə rəvac verdi. O rejimdə müsəlmanlara münasibət fərqli idi. İnsanları dinsiz etmək olmadı. Azərbaycan islam əxlaqı ilə yaşadığı üçün ondan kənara çıxa bilmir, bilmədi və bundan sonra da çıxa bilməz".

Deputat qeyd edib ki, düyada din qədər insana təsir edən ikinci bir cəbhə yoxdur. O əlavə edib ki, Azərbaycan hazırda özünün ən şərəfli səhifəsini yaşayır.

***Anar Kəlbiyev***

## 5.3.12. azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Kənd sakinləri sahibkara çevrilir

## KOBİA-nın layihəsi bölgələrdə həm turizmin, həmçinin sahibkarlığın inkişafına böyük töhvə verir



***Bölgələrdə sahibkarlığın inkişafı istiqamətində işlər davam etdirilir. Xüsusilə turizm bölgələrində sahibkarlığın inkişafı dövlət tərəfindən dəstəklənir. Hətta turizm zonalarında yerli sakinlərin sahibkara çevrilməsinə də şərait yaradılır. Bu günlərdə bir neçə turizm bölgəsində kənd qonaq evləri yaradılıb. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov mətbuata açıqlamasında bildirib ki, "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" layihəsi çərçivəsində Dağlıq Şirvan, Quba-Xaçmaz, Lənkəran-Astara və Şəki-Zaqatala iqtisadi rayonlarında 65 kənd qonaq evi yaradılıb. Onun sözlərinə görə, KOBİA və tərəfdaşların dəstəyi ilə icra olunan layihə regionlarda sahibkarlığı təşviq edir.***

Xaçmaz rayonu Xudat sakini Pirmuradova Səidə də bu layihədən yararlanıb. O, deyir ki, illərdir evini hərbiçilərə kirayə verib. Amma turizm məqsədilə evi kirayə verməkdah çox qazanc gətirdiyindən aidiyyatı üzrə dəstək almaq üçün müraciət edib: "Bizim bölgəmiz turizm zonasıdır. Şimal zonasına çox turist gəlir. Çox istəyirdim ki, həyətdəki evimi turistlərə günlük yaxud aylıq kirayə verim. Çünki, bununla daha çox qazanc əldə etmək mümkündür. Buna baxmayaraq əlimdə evi təmir etmək üçün pul yox idi. Rayona qonaq gələn turist isə təmirli, şəraitli ev axtarır. Sağ olsunlar ki, mənə belə bir imkan yaratdılar. Həyətdəki evimin təmirinə maddi kömək etdilər. Həmçinin içərisinə məişət avadanlıqları alıb verdilər. İndi mənim evim rayondakı kotejlərdən demək olar ki, fərqlənmir. Gündəlik 50 manata evimi kirayə verə bilirəm".

S. Pirmuradova deyir ki, dövlətin turizmə dəstəyi kənddə insanların məşğulluğuna da təsir edir. Onlar gələn turistlərə öz hazırladığı ev yeməklərindən, həyətdə saxladıqları malheyvanın ətindən, südündən, yağından təklif edərək də pul qazana bilirlər.

Həmsöhbətimiz deyir ki, həyətyanı sahəsi böyük olduğundan, gələcəkdə turistlərə kirayə vermək üçün bir neçə ev tikməyi nəzərdə tutur. S. Pirmuradova qonşu kəndlərdə belə sahibkarların olduğunu söyləyir. Bildirir ki, turizm bölgələrində kiçik sahibkarlığın inkişafına dəstək vacibdir. Çünki, ərazidə istirahət mərkəzlərinə, hostellərə tələbat böyükdür.

KOBİA-dan isə bildirdilər ki, layihə regionlarda sahibkarlığın təşviq olunması, özünüməşğulluğun təmin edilməsi, kənd turizminə dəstək və sakinlərin rifahının yaxşılaşdırılması məqsədilə əhəmiyyətlidir. Kənd turizmi üçün böyük potensial imkanları olan Azərbaycanda da artıq üçüncü ildir ki, "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" layihəsi çərçivəsində kənd qonaq evləri yaradılır. 2021-ci ildən icrasına başlanılan layihə İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi və Dövlət Turizm Agentliyinin dəstəyi ilə həyata keçirilir. Layihə çərçivəsində ilkin olaraq İsmayıllı rayonunda 15 kənd qonaq evi yaradılıb, müvafiq avadanlıqlarla təmin edilib. Regionlarda sahibkarlığın təşviq olunması, özünüməşğulluğun təmin edilməsi, kənd turizminə dəstək və sakinlərin rifahının yaxşılaşdırılması məqsədilə həyata keçirilən layihənin ikinci mərhələsi üzrə müxtəlif rayonlardan olan 220-dən çox kənd sakini qeydiyyatdan keçib və onların arasından müvafiq meyarlara uyğun olanlar seçilib, lazımi avadanlıqlarla təmin edilib. Layihə iştirakçıları biznes və turizmlə bağlı, o cümlədən biznes-planın tərtib olunması, müvafiq menecment və müştəri məmnuniyyəti, satış, qonaqqarşılama üsulları, təmizlik və gigiyenanın təşkili, təhlükəsizlik qaydaları, qidalanma, sosial medianın idarə edilməsi mövzularında təlimlərə cəlb olunublar. Eyni zamanda, həmin şəxslərə biznesin idarə edilməsi və turizm üzrə məsləhət, biznesin inkişafı ilə bağlı mentorluq xidmətləri göstərilib.

Kənd qonaq evi yaratmaq üçün layihə çərçivəsində seçimlər 2 mərhələdə aparılır. İlkin olaraq tərəfdaşlar tərəfindən müraciətlər təhlil olunur, onların turizm marşrutu üzərində yerləşməsi, zəruri infrastrukturun qurulması və evin cari şəraiti əsas götürülür. Növbəti mərhələdə vətəndaşların qanunvericiliyə uyğun qaydada əmək və məşğulluq altsistemində statusu yoxlanılır. Şəxsin layihəyə cəlbi üçün əsas şərtlərdən biri onun işsiz olmasıdır. Seçim zamanı hər iki mərhələdən uğurla keçən vətəndaşlar layihədə iştirak hüququ əldə edirlər, həmin şəxslərə turizm və xidmət sahələri üzrə müvafiq biliklərə yiyələnmələri üçün təlimlər təşkil edilir, turizm obyekti kimi istifadə olunacaq ərazidə təmir-bərpa işləri aparılır. Növbəti mərhələdə sahibkarlıq obyektləri aqroturizm zərfi üzrə müvafiq avadanlıqlarla təchiz edilir.

Qeyd edək ki, bu layihə çərçivəsində müxtəlif rayonlar üzrə ümumilikdə 65 vətəndaş üçün kənd qonaq evi yaradılıb. Artıq Dağlıq Şirvan, Şəki-Zaqatala, Lənkəran-Astara, Quba-Xaçmaz regionlarında layihənin icrası təmin olunub, növbəti mərhələdə isə qərb rayonlarında həyata keçirilməsi nəzərdə tutulub.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# "MEDİAlab" layihəsi çərçivəsində tələbələr üçün infosessiya keçirildi

***Martın 29-da Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "MEDİAlab" layihəsi çərçivəsində ali təhsil müəssisələrinin tələbələri üçün infosessiya keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə açılış nitqi ilə çıxış edən Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli bildirib ki, bu layihə media sahəsində innovasiya və inkişaf yönümlü fəaliyyətin davamlılığının təmin edilməsi, təhsil prosesində ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyasının dəstəklənməsi və gənclərin bacarıqlarının inkişafında müstəsna rol oynayacaqdır.

Tədbirin davamında MEDİA Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova media sahəsində gənc və peşəkar mütəxəssislərin hazırlanması və tendensiyalara uyğun rəqəmsal media bacarıqlarının inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Sonra MEDİA Agentliyinin nümayəndəsi Aytən Babayeva "MEDİAlab" layihəsinin təqdimatını edərək, layihənin əsasən iki komponentdən - maarifləndirmə və bacarıqların inkişafından ibarət olacağını bildirib.

MEDİA Agentliyinin nümayəndəsi Aynur Zeynallı isə layihə çərçivəsində keçirilən sorğunun nəticələri və bir illik fəaliyyət planı haqqında məlumat verərək, növbəti mərhələdə müxtəlif ardıcıl inkişaf proqramlarının təşkil olunacağını vurğulayıb.

Tədbirin ikinci hissəsində Azərbaycan Televiziyasının "Xəbərlər" proqramının aparıcısı, telejurnalist Ruslan Həsənov tərəfindən "Newslab" - yaradıcı düşünmə, məzmun istehsalı və xəbər hazırlanması ilə bağlı bacarıqların inkişafı vörkşopu keçirilib. İnteraktiv müzakirə formatında keçirilən sessiyada Ruslan Həsənov iştirakçıları maraqlandıran sualları cavablandırıb, onlara praktik tapşırıqlar verib.

"MEDİAlab" layihəsinin əsas məqsədi texnoloji transformasiya zəncirinin əsas halqalarından olan insan resurslarının inkişafı üçün müvafiq sahədə kadr potensialının artırılması, media subyektləri və ali təhsil müəssisələri arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığın genişləndirilməsinə dəstək göstərilməsi, gənclərə rəqəmsal media bacarıqlarının təkmilləşdirilməsi üçün əlverişli ekosistemin yaradılmasıdır.




# Azərbaycanda ilk dəfə Kosmik Nəsil Məşvərət Şurası toplanacaq

***Azərkosmos və Kosmik Nəsil Məşvərət Şurasının təşkilatçılığı ilə Azərbaycanda ilk dəfə "Space Generation Azerbaijan" (SG Azerbaijan) tədbiri keçiriləcək.***

"Unikal" xəbər verir ki, "Qadınlar kosmosda: çətinliklər və imkanlar" mövzusuna həsr olunmuş tədbir 27 aprel tarixində ADA Universitetində təşkil olunacaq.

Dünyada hər il aprelin sonuncu həftəsinin dördüncü günü "İKT-də Qızlar" günü kimi qeyd edilir. Bu il 27 aprel tarixinə təsadüf edən bu əlamətdar günün məqsədi qızları informasiya-kommunikasiya texnologiyaları sahəsinə cəlb etmək, onların bu sahədə rolunun artırılmasına dəstək verməkdir.

"SG Azerbaijan" tədbirinin də əsas məqsədi gənclərə kosmos sahəsində düzgün təhsil, peşə seçimində yol göstərmək və onları kosmos sahəsinin imkanları barədə maarifləndirməkdir. Xatırladaq ki, ölkəmizdə artıq peyklərimizin idarə olunmasında peyk mühəndisi, hüquqşünas, iqtisadçı, peyk əməliyyatları üzrə operator, peyk təsvirləri üzrə mütəxəssis kimi çalışan peşəkar qadınlar vardır.

"SG Azerbaijan" tədbirində Azərbaycanın bütün bölgələrindən tələbələrin, gənc mütəxəssis və alimlərin, kosmos həvəskarlarının bir araya gəlməsi nəzərdə tutulub. Tədbir çərçivəsində iştirakçılar kosmik elm və texnologiya sahəsinə dair sessiyalarda, panel müzakirələrdə, vebinarlarda, master-klaslarda və netvörkinqdə iştirak etmək imkanı əldə edəcəklər.

# Kamran Əliyev Ağcabədidə qəbul keçirəcək

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev cari il aprelin 7-də, saat 10:00-da Ağcabədi rayon prokurorluğunun inzibati binasında Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, Xocavənd və Laçın rayon sakinlərinin qəbulunu keçirəcək.***

Bu barədə "Unikal"a Baş Prokurorluqdan məlumat verilib.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Ağcabədi rayonuna gəlmələrinin təşkili rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı, eləcə də prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook, telegram, twitter) vasitəsilə də qəbula yazıla bilərlər.

# Bu yolda nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq

***Bakının Nərimanov rayonunun Baksol yolunda aprelin 2-də saat 08:00-dan 22:00-dək nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi məlumat yayıb.

Bildirilir ki, buna səbəb dəmir yolu xətti üzərində aparılacaq təmir işləridir.

Agentlik sürücülərə qeyd olunan vaxt kəsiyində alternativ yollardan istifadə etməyi tövsiyə edir.

# Azərbaycanda bu avtomobillər bahalaşacaq - Ekspert

***Xəbər verdiyimiz kimi, Baş nazir Əli Əsədovun qərarı ilə zavod buraxılış tarixinə görə yaşı 10 ildən çox olan minik avtomobillərinin (raritet minik avtomobilləri və gömrük ərazisinə müvəqqəti gətirilən minik avtomobilləri istisna olmaqla) Azərbaycan Respublikası ərazisinə gətirilməsi məhdudlaşdırılıb.***

Beləliklə, artıq ölkəyə istehsal ili 2013-dən aşağı olan maşınların gətirilməsinə icazə verilməyəcək.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən hazırda ölkədə 1,4 milyondan çox minik avtomobili mövcuddur. Bunun 1,3 milyondan çoxu şəxsi minik avtomobillərinin payına düşür.

Azərbaycanda minik avtomobillərinin yaş strukturu belədir:

- 2 ilə qədər olan minik avtomobilləri 2%;



- 2 ildən 5 ilə qədər olan minik avtomobilləri 3%;
- 5 ildən 10 ilə qədər olan minik avtomobilləri 11,9%.

Umumilikdə isə yaşı 10 ildən artıq olan minik avtomobillərinin payı 80%-dən çoxdur.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən iqtisadçı ekspert Natiq Cəfərli bildirib ki, bu qərarın məntiqi ölkəyə daha yeni və ekologiyaya daha az ziyan vuran avtomobillərin gətirilməsini təmin etməkdən ibarətdir:

"Əslində, belə qərarları avtomobil istehsalı olan ölkələr verir. Bizdə isə ümumiyyətlə, avtomobil istehsalı anlayışı yoxdur. Beləliklə, bu qərarın verilməsi nəticəsində köhnə avtomobillərin, yeni istehsal ili 2013-dən aşağı olan maşınların qiymətində ciddi artım müşahidə edəcəyik.

Yeni avtomobillərin qiyməti daha bahadır. Alıcılıq qabiliyyətinə görə insanlar həmişə daha ucuz avtomobillərə üstünlük verirlər", - deyə o qeyd edib.

***Murad İbrahimli***

# Ən məşhur azərbaycanlı "qanuni oğru"lar - SİYAHI

***Kriminal aləmdə ən nüfuzlu titul sayılan "qanuni oğru"lar öz kodeksləri ilə seçiliblər. Sovet İttifaqında, sonralar isə MDB məkanında geniş yer alan "qanuni oğru" lar arasında azərbaycanlılar da təmsil olunub.***

"Unikal" Azərbaycanın indiyədək ən məşhur 6 "qanuni oğru"sunu təqdim edir:

**Lotu Quli**

Əsl adı - Nadir Səlifovdur. Gürcüstanda (Dmanisi) anadan olub. O, 90-2000-ci illərin ən təhlükəli və nüfuzlu azərbaycanlı "qanuni-oğru"lardan biri hesab olunurdu. Lotu Qulinin şöhrəti Gürcüstana, Azərbaycana, Moskvaya geniş yayılmışdı. Lotu Quli 2020-ci ildə Antalyada sui-qəsd nəticəsində öldürülüb.

**Rövşən Lənkəranski**

Məşhur azərbaycanlı "qanunioğru" Lənkəran şəhərində polis ailəsində anadan olub, əsl adı Rövşən Caniyevdir. O, Azərbaycanda və Moskvada məşhur cinayəyt aləminin üzvlərindən biri olub. Rövşən Cəniyev 2016-cı il avqustun 18-i Beşiktaşın İstanbul rayonunda suiqəsdin qurbanı olub.

**"Zayka"**

Əsl adı Zaur Əliyevdir. "Zayka" 2000-ci illərin əvvəllərində Moskvada məşhurlaşıb. Böyük Qafqaz briqadaları ilə rəqabət aparan güclü mütəşəkkil cinayətkar qrup yaradıb.

**"Vaqif İrəvanski"**

Əslən İrəvan şəhərindəndir. Moskva vilayətində ən yaşlı və ən nüfuzlu azərbaycanlı "qanuni-oğru"larından biridir.

**"Qırmızı Albert"**

Əsl adı Əli Heydərovdur. Gəncə şəhərində anadan olub. "Albert Rıjiy" ləqəbi ilə tanınan kriminal avtoriteti 2021-ci ilin aprelin 12-də fitnes mərkəzində güllələyiblər.

**"Tolik Noqinski"**

Əsl adı Taleh Dağlıyev Bakının



Sabunçu rayonunun Maştağa qəsəbəsində anadan olub. Moskvada geniş nüfuza sahib olub. O, 2016-ci ildə Rusiyada həbs edilib.

***Gülayə Mecid***

# Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı ağacəkmə tədbirləri keçirilir

***Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkil etdiyi ağacəkmə tədbirləri bu gün də davam edib.***

"Unikal" xəbər verir ki, Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirlikləri, Dövlət Gömrük Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi və Dövlət İmtahan Mərkəzinin rəsmiləri və əməkdaşlarının, eyni zamanda, könüllülərin iştirakı ilə keçirilən ağacəkmə zamanı Müşfiqabad qəsəbəsində Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.

Ağacəkmə tədbirlərinin keçirilməsində məqsəd yaşıllıqların artı-



rılmasına, ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, Ümummilli Liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdir.

Dövlət Dəniz və Liman Agentliyi və "BOS Şelf" MMC-nin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş ağacəkmə aksiyası keçirilib.

Aksiya Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun ərazisində baş tutub. Sözügedən ərazidə torpaq-iqlim şəraitinə uyğun olaraq 100 ədəd zeytun ağacı əkilib. Ağacəkmə aksiyasının keçirilməsində məqsəd ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük əhəmiyyət vermiş Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, Ümummilli Liderin yaşıllaşdırma ənənələrini davam etdirmək, ekologiyanı qorumaq və insanlar arasında ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etməkdir.

# ASC nümayəndələri ABŞ-da keçirilən beynəlxalq Su Konfransında

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ABŞ-da keçirilən beynəlxalq Su Konfransında iştirak edib.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, BMT-nin Nyu-Yorkdakı qərargah binasında Su Konfransı çərçivəsində Azəbaycanın ev sahibliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının, Beynəlxalq Miqrasiya Təşkilatının, ABŞ-ın nüfuzlu Arizona Dövlət Universitetinin təşkilatçılığı ilə "Azərbaycanda transformativ tədbirlər vasitəsilə Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmağı sürətləndirmək üçün su sektorunda həyata keçirilən islahatlar, maraqlı tərəflərin iştirakı və innovasiyanın tətbiqi" adlı tədbir keçirilib. Tədbirdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəsmiləri də iştirak edib. BMT Azərbaycanın Su Konfransındakı təşəbbüsünü yüksək qiymətləndirib.




BMT rəsmiləri və mütəxəsislər Azərbaycanın bu beynəlxalq təşkilatın Su Konfransının nəticələrinə töhfə vermək üçün region ölkələrini bir platformada birləşdirən Regional Məlumat Mərkəzi kimi fəaliyyət göstərmək təşəbbüsünü yüksək qiymətləndiriblər.

Tədbirdə bir çox ölkələrin (Moldova, Özbəkistan, Qırğızıstan, Belarus, Türkmənistan, Türkiyə) Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı, İqtisadiyyat nazirlikləri rəsmilərinin və su sahəsində ixtisaslaşmış özəl şirkətlərin təmsilçilərinin, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı və Beynəlxalq Miqrasiya Təşkilatlarının nümayəndələrinin, ABŞ-ın Arizona Dövlət Universitetinin mütəxəsisslərinin DİM ilə bağlı çıxışları dinlənilib, fikir mübadiləsi və müzakirələr aparılıb.

# İsmayıllıda yay suvarma mövsümü üçün hazırlıqlar yekunlaşır

***İsmayıllıda torpaq məcralı kanal beton üzlüyə alınıb. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, İsmayıllı rayonunun yaz-yay suvarma mövsümü üçün hazırlıqlar yekunlaşmaq üzrədir.***

Bu məqsədlə İsmayıllı Suvarma Sistemləri İdarəsi tərəfindən idarənin balansında olan suvarma kanalları lildən təmizlənir, su itkisinin qarşısını almaq məqsədilə kanallar beton üzlüyə alınır, hidrotexniki qurğular, hidrometrik postlar və subartezian quyuları cari təmir olunur. 2022-ci ildə İsmayıllı rayonu ərazisində suvarma kanalları 403 min m? lildən təmizlənib. Çay məcralarında isə 581 min m? təmizləmə işləri aparılıb. 2023-cü ilin əvvəlindən bu vaxta qədər suvarma kanallarında 32 min m? lildən təmizləmə, 60 min m? çay məcralarında təmizləmə işləri görülüb və bu istiqamətdə işlər davam etməkdədir. Rayon ərazisində 1 ədəd su anbarı və 5 ədəd kiçik su tutarı var. 3.5 mln m? su tutumu olan Aşıqbayramlı su anbarı vasitəsilə Göyçay Suvarma Sistemləri İdarəsinin balansında olan və tutumu 18 mln m? təşkil edən Yekəxana su anbarının doldurulması təmin edilir.



İdarə tərəfindən ötən 2022-ci ildə 38 ədəd hidrotexniki qurğu, 11 ədəd hidrometrik post, 35 ədəd subartezian quyusu cari-təmir olunub və Aşağı-Zərnava kəndində bir ədəd subartezian quyusu əsaslı təmir olunub. Rayon ərazisində yerləşən çayların sululuq səviyyəsi ötən illərə nisbətən xeyli aşağı düşüb. Bununla əlaqədar olaraq su itkisinin qarşısının alınması məqsədilə Qəzli-Aşıqbayramlı suvarma kanalı 425 paqonometr beton üzlüyə alınıb. Talıstançayda 560 m3 daş-beton bənd işləri görülüb, Göyçayçay-İsmayıllı magistral beton kanalın suqəbuledici qurğudakı qapıları təmir edilib və bu il də işlər davam etdiriləcək. Bundan başqa İsmayıllı Suvarma Sistemləri İdarəsi tərəfindən 2022-ci ildə Uştal, Vəng, Qoşakənd, Çərmədil və Qarakolluq kəndlərində subartezian quyuları qazılaraq istifadəyə verilib. 2023-cü ildə rayonun Hacıhətəmli, Qalagah, Mücəftəran, Tinglik, Diyallı və Qubaxəlilli kəndlərində yeni subartezian quyularının qazılması nəzərdə tutulur.

Qeyd edək ki, İsmayıllı Suvarma Sistemləri İdarəsi İsmayıllı rayonunda 8833 hektar suvarılan əkin sahəsinə xidmət edir.

***Hüseyn İsgəndərov***

# Mətbuat şuralarının inkişafı üzrə yeni konsepsiya hazırlanır

***Avropa Müstəqil Mətbuat Şuraları Alyansının (AIPCE) Avropa Jurnalistlər Federasiyası (EFJ) ilə birgə icra etdiyi "Media şuraları rəqəmsal dövrdə" adlı layihə çərçivəsində mətbuat şuralarının inkişafını ehtiva edən konsepsiya hazırlanır. Avropa Komissiyası tərəfindən maliyyələşdirilən layihəyə UNESCO da dəstək verir.***

Azərbaycan Mətbuat Şurasının Beynəlxalq əlaqələr komissiyasının sədri Müşfiq Ələsgərli bildirib ki, layihənin əsas məqsədi internet medianın inkişaf etdiyi bu dövrdə mətbuat şuralarının rolunu müəyyənləşdirməkdən, onların rəqəmsal dövrə trasformasiyasını təşviq etməkdən ibarətdir: "Media şuralarının rəqəmsal dövrə transformasiyasını ehtiva edən yeni konsepsiya hazırda tədqiqatlar və təhlillər mərhələsindədir. AIPCE-yə üzv olan mətbuat şuralarının vəziyyətləri araşdırılır, rəy və təklifləri öyrənilir. Əldə edilən nəticələr təhlil olunur, yeni konsepsiya üçün baza yaradılır".

Müşfiq Ələsgərli qeyd edib ki, AIPCE-nin üzvü olaraq Azərbaycan Mətbuat Şurası da tədqiqatlara cəlb edilib, fikirləri, təklifləri dinlənilib: "Azərbaycan Mətbuat Şurasının Beynəlxalq əlaqələr komissiyası olaraq, biz prosesin uğurla tamamlanmasına töhfələr veririk. Mövzu üzrə debatlara qatılaraq, Azərbaycan Mətbuat Şurasının mövcud durumunu təsvir etmişik, qurumun adından təklif və rəylərimizi çatdırmışıq. Mən, eyni zamanda, komissiyanın üzvləri Azər Həsrət və Fərid Pərdəşünas da müzakirələrə, debat və sorğulara qatılmışıq. Onlar AIPCE tədqiqatçıları David Puertas Graell, Luc De Smet ilə müsahibələr əsnasında mətbuat şuraları üzrə yeni çağırışlar barədə fikirlərini səsləndiriblər".





# Naxçıvan MR Hərbi Prokurorluğu yenidən təşkil olunacaq

***Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu yenidən təşkil olunacaq.***

"Unikal" xəbər verir ki, bununla bağlı Azərbaycan Respublikasının "Prokurorluq haqqında" qanununa dəyişiklik təklif edilir. Dəyişikliyə əsasən, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun tabelik qaydası dəyişdirilməklə yeni təşkil olunması nəzərdə tutulur.

Dəyişikliklər nəticəsində həyata keçiriləcək institusional islahatlar prokurorluq orqanlarının struktur quruluşunun təkmilləşdirilməsinə səbəb olacaq.

Layihə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında birinci oxunuşda müzakirəyə çıxarılıb.

# Dollara tələbin artması devalvasiyaya səbəb olacaq?

***Son günlər Azərbaycanda dollara tələb kəskin artıb. Mərkəzi Bankın təşkil ediyi sonuncu hərracda xarici valyuta tələbi 96.3 milyon dollar olub. Əvvəlki hərracda sifariş 47.9 milyon dollar təşkil edib. Bu isə dollara tələbin 2 dəfədən çox artdığını göstərir.***



Maraqlıdır, dollara tələbin artmasının səbəbi nədir? Bu yeni devalvasiyaya səbəb olacaq?

Vətəndaşları düşündürən mövzu ilə bağlı Modern.az-a danışan iqtisadçı ekspert Eldəniz Əmirov bildirib ki, sonuncu hərracda dollara tələbin artması ümumi tendensiya deyil. O fikirlərini belə əsaslandırıb: "Həmin vaxt həm bankların, həm də vətəndaşların tətildə olduğunu nəzərə almalıyıq. İqtisadi aktivlikdə bir az ləngimə var. Hərracların uzun müddət həyata keçirilməməsi indiyədək yığılıb qalmış istəkləri artırır. Bunu günlər üzrə bölsək, görəcəyik ki, əslində günlər üzrə tələbat heç də artmayıb".

Ekspertin fikrincə, narahat olmağa dəyməz, hazırda devalvasiya təhlükəsi yoxdur: "İndiki durumda manatın məzənnəsinə, yaxud dolların artmasına səbəb olacaq devalvasiya gözlənilmir. Çünki buna zərurət yoxdur. Neftin qiyməti kifayət qədər bahadır. Dollara olan tələbatı ödəmək üçün vəsait var".

İqtisadçı vurğulayıb ki, Mərkəzi Bankın manata təsirləri aradan qaldırmaq üçün kifayət qədər potensialı mövcuddur: "Mərkəzi Bankın 9,043 milyard dollar həcmində ehtiyatı formalaşıb. Bu o deməkdir ki, Mərkəzi Bankın manata qarşı təzyiqləri aradan qaldırmağa real potensialı var. Azərbaycanda hazırda heç bir formada devalvasiya olacağı gözlənilmir. Amma qarşıdakı aylarda proseslər necə olacaq, valyuta ehtiyatlarının həcmi hansı istiqamətdə dəyişəcək, inzibati qaydada qərarlar necə veriləcək, bunu demək çətindir. Azərbaycanda manatın məzənnəsi inzibati metodlarla təmin olunur. Bu da bilavasitə subyektiv qərarlardan doğur. Məhz bu səbəbdən 2 il devalvasiya olmayacaq deyə qəti fikir bildirmək doğru deyil. Hazırkı vəziyyətdə isə hər şey sabitdir".

## Yenidən Qazaxıstanın Baş naziri təyin edildi

***Əlixan Smayilov yenidən Qazaxıstanın baş naziri təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə ölkə Prezidenti Kasım-Jomart Tokayev sərəncam imzalayıb.

Xatırladaq ki, Smayilov ötən ilin yanvarından Qazaxıstan hökumətinə rəhbərlik edirdi və dünən onun başçılıq etdiyi Nazirlər Kabineti istefa verib.

## Bayden Rusiyaya qarşı sanksiyaları daha bir il uzatdı

***ABŞ prezidenti Co Bayden fövqəladə vəziyyət rejimini və ölkənin məruz qaldığı kiberhücumlara görə Rusiyaya qarşı sanksiyaları daha bir il uzadıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ağ Evin mətbuat xidməti məlumat yayıb.

Məhdudiyyətlər Rusiya təşkilatlarına da şamil edilib.

"Bu səbəbdən 2015-ci il aprelin 1-dən tətbiq edilən fövqəladə vəziyyət 2023-cü il aprelin 1-dən sonra da davam etdirilməlidir", - məlumatda deyilir.

## Rusiya pilotları Ermənistanda təlimlər keçirib

***Rusiya pulemyotçuları və pilotları Ermənistanda təlimlər keçirib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Federasiyası Cənub Hərbi Dairəsinin mətbuat xidməti məlumat verib.

Bildirilir ki, hərbçilər yüksək dağ poliqonunda tank əleyhinə əl qumbaraatanları ilə təlimlər keçirib. Təlim uçuşlarında 130-dan çox hərbçi, 20 hərbi və xüsusi texnika, o cümlədən MiQ-29 iştirak edib.

*Gülayə Mecid*

## FTX amerikalı jurnalisti saxladı

***Rusiyada Federal Təhlükəsizlik Xidmətinin əməkdaşları Yekaterinburqda "The Wall Street Journal" qəzetinin jurnalisti Evan Herşkoviçi "casusluq" ittihamı ilə saxlayıblar.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat yayıb.

"ABŞ-ın tələbi ilə o, Rusiya hərbi sənayesinin müəssisələrindən biri haqqında dövlət sirri təşkil edən məlumatların toplanması ilə məşğul olub", - deyə KİV qeyd edib.

## İsrail Dəməşqi vurdu

***Bəşər Əsəd rejimi İsrailin Suriyanın paytaxtı Dəməşqin bəzi nöqtələrinə hava hücumu təşkil etdiyini iddia edib.***

"Unikal" xəbər verir ki, bu barədə SANA agentliyi məlumat yayıb. Bildirilir ki, hücum nəticəsində 2 nəfər yaralanıb.

## Pakistanda terror aktı: 4 polis öldü

***Pakistanın Hayber Paxtunxva əyalətində polis məntəqəsinə silahlı hücum olub.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, hadisə nəticəsində 4 polis həyatını itirib, 6 polis əməkdaşı yaralanıb.

Hələlik heç kim hücuma görə məsuliyyəti üzərinə götürməyib.

# "Azərbaycan Xankəndini Ermənistanla birləşdirən yolu nəzarətə götürüb" - Paşinyandan ETİRAF

***"Ermənistan Dağlıq Qarabağa hərbi nəqliyyat həyata keçirmir".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

Baş nazirin sözlərinə görə, Azərbaycan yeni nəzarətə götürdüyü 2054 metrlik yüksəklikdən Xankəndini bir neçə kənd vasitəsilə Ermənistanla birləşdirən torpaq yolu birbaşa müşahidə altına alıb. Paşinyan qeyd edib ki, Ermənistan Qarabağa hərbi nəqliyyat daşımır: "Ermənistanın Dağlıq Qarabağda ordusu yoxdur".



Paşinyan daha sonra bildirib ki, bütün çətinliklərə baxmayaraq, Ermənistan hökuməti sülh gündəliyinə sadiqliyini bir daha təsdiqləyir.

"Ümid edirik ki, yaxın gələcəkdə həm Bakının Qarabağ erməniləri ilə danışıqlar formatında, həm də Ermənistan-Azərbaycan formatında konkret dəyişikliklər baş verəcək. Ermənistan Respublikası buna hazırdır", - deyə o bildirib.

"Təbii ki, bu kontekstdə müvafiq beynəlxalq mexanizmlərin və təminatların həyata keçirilməsi olduqca vacibdir", - deyə Paşinyan söyləyib.

*Ağarza Elçinoğlu*

# Ərdoğan Rusiya və Ukraynanı danışıqlar üçün İstanbula dəvət etdi

***Türkiyə Rusiya və Ukrayna arasında sülh danışıqlarını ən qısa zamanda təşkil etmək istəyir.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Macarıstan prezidenti Katalin Novak ilə danışıqlardan sonra keçirdiyi mətbuat konfransında bildirib.

"Biz Ukrayna ilə Rusiya arasında danışıqlar masası arxasında sülhün mümkün qədər tez bərqərar olmasını və danışıqlar masası arxasında sülhə nail olmaqla müharibəyə son qoymaq istəyirik", - deyə Türkiyə lideri vurğulayıb.

Ərdoğan qeyd edib ki, Ankara daha əvvəl Rusiya və Ukrayna nümayəndə heyətləri arasında danışıqların bir neçə raundunun keçirildiyi İstanbulda



danışıqları yenidən bərpa etmək istəyir.

# "İran "xərçəng xəstəliyi" kimidir, hansı ölkəyə müdaxilə edirsə..." - İsrail XİN rəhbəri

***İsrailin xarici işlər naziri Eli Koen İran və Səudiyyə Ərəbistanı arasında diplomatik münasibətlərin bərpasını şərh edərkən Tehranla bağlı kifayət qədər sərt açıqlama verib.***

"Unikal" xəbər verir ki, bu barədə "Time of Israel" məlumat yayıb.

"İran qonşularını hədələyir. Onların arasında ən yaxın qonşular da ola bilər, Səudiyyə Ərəbistanı da. Səudiyyə Ərəbistanına hücumu xatırlayırıq. İran "xərçəng xəstəliyi" kimidir. İran hansı ölkəyə müdaxilə edirsə, o ölkəni məhv edir. Livanda




baş verənlərə baxın. Bu, Hizbullah vasitəsilə edilir. Görün İran Suriyanı necə məhv etdi, Yəməndə, İraqda nə etdi. İran dünyada terroru maliyyələşdirən bir nömrəli ölkədir", - Eli Koen bildirib.

O əlavə edib ki, dünyada və regionda sabitliyin təminatı İranın nüvə silahına malik olmasına imkan verməməkdir.

"Biz bu məqsədə çatmaq üçün daha çox ölkənin bizə qoşulmasını gözləyirik", - nazir qeyd edib.

*Gülayə Mecid*

# Çin müharibəyə hazırlaşır

***Çin lideri Si Cinpin müharibəyə hazırlaşdığını bildirib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Çin prezidenti parlamentin və onun ən yüksək siyasi məşvərət orqanının mart ayında keçirilən illik iclasında bildirib.

O, dörd ayrı çıxışında müharibəyə hazırlıq mövzusuna toxunub və çıxışlarının birində generalları "döyüşə hazır olmağa" çağırıb.

Hökumət həmçinin öz növbəsində Çinin müdafiə büdcəsini 7,2% artırdığını və ölkəni xarici taxıl idxalından daha az asılı vəziyyətə salmağı planlaşdırdığını açıqlayıb.



Son aylarda Pekin yeni hərbi hazırlıq qanunlarını, Tayvan boğazı boyunca şəhərlərdə yeni bomba sığınacaqlarını və ölkə daxilində yeni Milli Müdafiə Səfərbərlik ofislərini təqdim edib.

*Ağarza Elçinoğlu*

# Azərbaycanda bu federasiyaya yeni prezident seçildi



***Azərbaycan Triatlon Federasiyasının yeni prezidenti bəlli olub.***

Gənclər və İdman Nazirliyindən "Unikal"a verilən məlumata görə, səsvermə qurumun ümumi yığıncağında baş tutub. Nazirliyin inzibati binasında gerçəkləşən tədbir Dövlət Himninin səsləndirilməsi ilə start götürüb.

Gənclər və idman naziri Fərid Qayıbov yığıncaq iştirakçılarını salamlayaraq onlara uğurlar arzulayıb. Federasiyanın iki gün əvvəl istefa vermiş prezidenti Elçin Əliyev hesabat məruzəsi ilə çıxış edib və səsvermə ilə hesabat qəbul edilib.

Sonra federasiyanın nizamnaməsinə əlavə və dəyişikliklər müzakirə edilərək qəbul olunub.

Ardınca yeni seçki keçirilib. Fərid Fərhadzadə Azərbaycan Triatlon Federasiyasının yeni prezidenti seçilib.

Qeyd edək ki, F.Fərhadzadə 2022-ci ildə İtaliyada keçirilmiş beynəlxalq yarışda uğurla iştirak edərək "Dəmir adam" ("Full İronman") titulunu qazanıb. Yeni seçilmiş federasiya prezidenti çıxış edərək bildirib ki, bundan sonra bu idman növünün inkişafı üçün əlindən gələni edəcək. O, həmçinin federasiyanın bundan əvvəlki rəhbərliyinə də ötən dövrdəki fəaliyyətinə görə təşəkkür edib.

Yığıncaqda həmçinin Fəxri Əkbərov və Adilə Süleymanova federasiyanın İdarə Heyətinə yeni üzv seçiliblər.

# "Mən "Qalatasaray"ı Qarabağda görmək istəyirəm" - Dursun Ozbek

***"Azərbaycanlı qardaşlarımız bizi çox gözəl qarşıladılar. Onlara buradan yenidən təşəkkürümü bildirirəm".***

Qol.az xəbər verir ki, bu haqda "Qalatasaray"ın prezidenti Dursun Özbek "Qarabağ"la Bakıda keçirilən xeyriyyə görüşü barədə danışarkən deyib.

Dünən klubun idarəçiləri və iş adamları üçün təşkil olunan iftar məclisində çıxış edən D.Özbek bildirib ki, bu matçın önəmi böyük olub: "Azərbaycanın 80 faizi "Qalatasaray"lıdır. 65 minlik stadionda 62 min 500 tamaşaçı vardı. Əksəriyyəti "Qalatasaray"a azarkeşlik edirdi. Cənab Prezident İlham Əliyevin və xanımının matçda iştirak etməsi oyuna ayrıca gözəllik bəxş etdi. Özü ilə görüşmək fürsətim də oldu" - deyə D.Özbək bildirib.



D.Özbek "Qarabağ"la əməkdaşlıq barədə də danışıb: "Tahir başqana ("Qarabağ"ın prezidenti Tahir Gözəl - red.) söylədiyim kimi, iki komandanın işbirliyinin inkişafını istəyirik. Edə biləcəyimiz çox şey var. Cənab Əliyevə Qarabağda meydanın hazırlanmasının və orada oyun keçirmək istədiyimizi söylədik. Mən "Qalatasaray"ı orada görmək istəyirəm. Qarabağda oynamaq istəyirəm. Çox anlamlı olardı. Özü də bu istəyimlə bağlı təlimatlar verdi. Böyük ehtimalla bir hazırlıq oyunumuzu də Qarabağda keçirəcəyik".

T.Özbək ümummilli lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar bu il türkdilli dövlətlərin komandalarının iştirakı ilə turnir keçirmək istədiklərini də söyləyib: "Həmin yarışda türkdilli ölkələrdən bir komandanın iştirakı istəyirik. Bununla onun xatirəsini anmış olarıq. Bu təklif də yaxşı qarşılandı".

D.Ozbek onu da deyib ki, "Qalatasaray" mağazalarında "Qarabağ"ın formalarının satılması üçün anlaşıblar: "Onlar da "Qalatasaray" formalarını öz mağazalarında satacaqlar. Məqsədimiz iki ölkənin qardaşlığının idmana da sirayət etməsidir. "Qalatasaray" bu məqsədlə əlindən gələni edəcək".

# Millimiz FİFA-nın reytinqində 3 pillə geriləyəcək

***Azərbaycan millisinin növbəti FİFA reytinqində ki mövqeyi bəlli olub.***

"Unikal"ın məlumatına görə, yığmamız aprel reytinqində dünyanın 124-cü komandası olacaq.

Canni de Byazinin yetirmələrinin hesabında 1142,25 xal olacağı dəqiqləşib. Millimiz hesabat dövründə iki matça çıxıb. Komandamız AVRO-2024-ün seçmə mərhələsində Avstriyaya 1:4, İsveçə 0:5 hesabı ilə uduzub.

Bu, millinin 3 pillə geriləməsinə səbəb olub. Niger, Qambiya və Mərkəzi Afrika Respublikası yığmamızı arxada qoyub.

Qeyd edək ki, FİFA reytinqi aprelin 6-da açıqlanacaq.



# Boksçumuz finala yüksəldi

***Bakıda yeniyetmə boksçular arasında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunan beynəlxalq turnir davam edir.***

Federasiyadan verilən məlumata görə, Boks Mərkəzində keçirilən yarışın ikinci günündə 7 çəki dərəcəsində 19 döyüş təşkil olunub.

Bu qarşılaşmalardan 18-i 1/4 final mərhələsi çərçivəsində baş tutub. Görüşlərin yekuna əsasən yarımfinala vəsiqə əldə boksçular bəlli olub. 48 kq çəkidə isə finalçının adına aydınlıq gəlib.

Azərbaycan boksçularından 4-ü yarımfinala yüksəldiyi halda, 1-i həlledici görüşdə iştirak hüququ qazanıb.

Turnirin üçüncü günündə 19 görüş olacaq. Döyüşlər saat 15:00-da başlanacaq.

Qeyd edək ki, 11 ölkədən 100-dən çox idmançının qatıldığı yarışın final döyüşləri aprelin 1-də keçiriləcək.

**1/4 final**

**63 kq**

Tərlan Əhmədov (Azərbaycan) - Taqir Satayev (Qazaxıstan) - ikinci tam üstünlüklə qalib gəlib

İman İrani (Azərbaycan) - Asker Xuaniş (Qazaxıstan) - 0:5

İqor Solovyev (Qazaxıstan) - Daniel Quranda (Moldova) - 5:0

Zviad Axalouri (Gürcüstan) - Abbasqulu Şadlinski (Azərbaycan) - zədə səbəbindən döyüş dayandırılıb, ikinci qalib elan olunub

**66 kq**

Kiril Şkuta (Qazaxıstan) - Timofey Tenyayev (Rusiya) - 0:5

Emir Kunoviç (Bosniya və Herseqovina) - Rüstəm Neymətov (Azərbaycan) - ikinci nokautla qalib gəlib

Rövşən Abbasov (Azərbaycan) - İvan Sinyak (Belarus) - 4:1

Elnur Abdullayev (Gürcüstan) - Bekaris Nurmuxan (Qazaxıstan) - 0:5

**70 kq**

Əli Məmişov (Azərbaycan) - Jassullan Berdali (Qazaxıstan) - 0:5

Rizat Tursinbek (Qazaxıstan) - Ahmet Aydamirov (Rusiya) - 0:5

Muhammadsaid Qulomov (Özbəkistan) - Kənan İsayev (Azərbaycan) - 5:0

**75 kq**

Tarik Kunovaç (Bosniya və Herseqovina) - Davit Mxetsadze (Gürcüstan) - 0:5

Əmir Abbasov (Azərbaycan) - Rüstəm Həsənov (Rusiya) - ikinci tam üstünlüklə qalib gəlib

Bakitjan Ayitmuxanov (Qazaxıstan) - Vüsal Məhərrəmov (Azərbaycan) - birinci tam üstünlüklə qalib gəlib

**80 kq**

Hüseyn Hüseynli (Azərbaycan) - Fuad Babayev (Azərbaycan) - 1:4

Andrey Rumyansev (Belarus) - Bekars Nariman (Qazaxıstan) - ikinci döyüşə gəlməyib

**+80 kq**

Dias Ayupov (Qazaxıstan) - Stanislav Jilianin (Belarus) - 2:3

Bexultan Kayratuli (Qazaxıstan) - İlkin Məmmədli (Azərbaycan) - 4:1

**1/2 final**

**48 kq**

Zidan Hümbətov (Azərbaycan) - Maksim Çapliqin (Rusiya) - 3:2